Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 81 (8104) ÇƏRŞƏNBƏ AXŞAMI, 16 aprel 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Xalqdan dəstək alan siyasət

## Azərbaycan Respublikası Prezidentinin və Belarus Respublikası Prezidentinin Birgə Bəyanatının təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Prezidentinin və Belarus Respublikası Prezidentinin 2018-ci il noyabrın 19-da Minsk şəhərində imzalanmış Birgə Bəyanatı təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 mart 2019-cu il*

## "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 29 avqust tarixli 973 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 25 fevral tarixli 992 nömrəli Sərəncamının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 29 avqust tarixli 973 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 8, maddə 916; 2014, № 3, maddə 251; 2016, № 1, maddə 69; 2018, № 7 (I kitab), maddə 1454) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.1.1-ci yarımbənddə "73" rəqəmləri "130" rəqəmləri ilə əvəz edilsin;

1.2. 1.1.2-ci yarımbəndin ikinci - dördüncü abzasları aşağıdakı redaksiyada verilsin:

"I dərəcə əlilliyi olan şəxslərə - 150 manat
II dərəcə əlilliyi olan şəxslərə - 130 manat
III dərəcə əlilliyi olan şəxslərə - 110 manat;";

1.3. 1.1.3-cü yarımbəndin ikinci - dördüncü abzasları aşağıdakı redaksiyada verilsin:

"I dərəcə əlilliyi olan şəxslərə - 150 manat
II dərəcə əlilliyi olan şəxslərə - 130 manat
III dərəcə əlilliyi olan şəxslərə - 110 manat;";

1.4. 1.1.4-cü yarımbəndin ikinci - dördüncü abzasları aşağıdakı redaksiyada verilsin:

"I dərəcə əlilliyi olan şəxslərə - 150 manat
II dərəcə əlilliyi olan şəxslərə - 130 manat
III dərəcə əlilliyi olan şəxslərə - 110 manat;";

1.5. 1.1.5-ci yarımbənddə "82" rəqəmləri "150" rəqəmləri ilə əvəz edilsin;

1.6. 1.1.6-cı yarımbənddə "68" rəqəmləri "80" rəqəmləri ilə əvəz edilsin;

1.7. 1.1.7-ci yarımbənd ləğv edilsin;

1.8. 1.1.8-ci yarımbənddə "68" rəqəmləri "100" rəqəmləri ilə əvəz edilsin;

1.9. 1.1.9-cu yarımbənddə "61" rəqəmləri "100" rəqəmləri ilə əvəz edilsin;

1.10. 1.1.11.2-ci yarımbənddə "müharibə əlillərinin, 20 Yanvar hadisələri zamanı əlil olanların, Çernobıl qəzası nəticəsində I və II qrup əlil olmuş" sözləri "müharibə ilə və ya 1990-cı ilin 20 yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərin, Çernobıl qəzası nəticəsində I və II dərəcə əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin;

1.11.1.2.2-ci yarımbənddə "109" rəqəmləri "200" rəqəmləri ilə əvəz edilsin;

1.12.1.2.3-cü yarımbənddə "146" rəqəmləri "300" rəqəmləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu fərmandan irəli gələn məsələləri həll etsin.

3. Bu fərman 2019-cu il aprelin 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 aprel 2019-cu il*

## 115 ölkə, 432 nümayəndə və Bakıdan dünyaya qlobal tərəfdaşlıq çağırışı

**Baş nazir Novruz MƏMMƏDOV:** "İşğal altındakı ərazilərdən narkotik vasitələrin istehsalı və tranziti üçün istifadə edilməsi narkobiznesin və beynəlxalq terrorizmin genişlənməsinə münbit şərait yaradır"



Aprelin 15-də Bakıda Azərbaycan Respublikası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının və Amerika Birləşmiş Ştatlarının Ədliyyə Departamentinin Narkotiklərlə Mübarizə Administrasiyasının birgə təşkilatçılığı ilə Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfrans (IDEC) işə başlayıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin fəal iştirakı ilə təşkil edilən, "Qlobal tərəfdaşlıqların səfərbər edilməsi" mövzusuna həsr olunan Bakı konfransının məqsədi narkotiklərin qanunsuz dövriyyəsinə qarşı qlobal mübarizəyə cəlb olunmuş yüksəkvəzifəli rəsmiləri bir araya gətirmək, bu bəşəri problemin həlli yollarını müzakirə etmək, fikir və qabaqcıl təcrübə mübadiləsi aparmaqdır.

Dünyanın 115 ölkəsindən 432 nümayəndənin qatıldığı beynəlxalq konfrans narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı mövcud olan müasir mübarizə üsullarından mütəxəssislərin bəhrələnməsinə şərait yaradacaq.

Konfransın açılış mərasimində əvvəlcə fəxri qarovul dəstəsi tərəfindən Amerika Birləşmiş Ştatlarının və Azərbaycan Respublikasının dövlət bayraqları salona gətirildi.

Sonra narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizədə həlak olan şəxslərin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Daha sonra ABŞ-ın və Azərbaycanın dövlət himnləri səsləndirildi.

Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov beynəlxalq konfransda çıxış etdi.

*Ardı 2-ci səh.*

## "Opinion Way" şirkətinin sorğusu bir daha göstərdi ki, İlham Əliyev vətəndaşların yüksək etimadına malikdir

**Fransanın "Opinion Way" şirkətinin ötən ay Azərbaycanda apardığı rəy sorğusu ölkədə həyata keçirilən siyasi kursun xalq tərəfindən dəstəkləndiyinin növbəti təsdiqi oldu. Eyni zamanda sorğunun nəticələri onu göstərdi ki, vətəndaşlar Prezident İlham Əliyevin rəhbərliyi ilə cəmiyyət həyatının bütün sahələrində qazanılan nailiyyətləri yüksək qiymətləndirirlər.**

### 16 ilin uğurları

Planetimizin son 16 illik mənzərəsi ürəkaçan deyil. Yeni münaqişə ocaqlarının yaranması, miqrant probleminin meydana çıxması, iqtisadi böhranlar, ayrı-ayrı qütblərdə dayanan dövlətlər arasında müharibə riskinin artması ötən illərin reallıqlarıdır. Azərbaycan da dünya birliyinin fəal üzvü kimi bu və ya digər proseslərin iştirakçısıdır. Lakin bu 16 ildə ölkəmizin keçdiyi yol tamamilə fərqlidir. Belə ki, bu dövrdə yürüdülən düşünülmüş və qətiyyətli siyasətin nəticəsi olaraq Azərbaycan özünün milli mənafelərini, dövlətçilik maraqlarını layiqincə qorumağı bacarıb. Ölkəmiz müstəqil siyasəti nəticəsində bütün beynəlxalq siyasi avantüralardan uzaq durub, hansısa dövlətə qarşı tətbiq olunan sanksiyalara qoşulmayıb. Elə buna görə də ötən 16 il Azərbaycan üçün dinamik inkişaf, beynəlxalq imicinin yüksəlməsi, regionun lider dövlətinə və dünyanın enerji təhlükəsizliyinin əsas təminatçılarından birinə çevrilməsi dövrü kimi xarakterizə olunur.

İndiyədək ölkəmizdə keçirilmiş bütün sosioloji sorğuların nəticələri də məhz bu cür mühüm göstəricilərə əsaslanıb. Qazanılan uğurlara istinad edən vətəndaşlar elə buna görə də mövcud siyasi kursa alternativ görmədiklərini bildiriblər.

Prezident İlham Əliyevin yeni müddətə prezidentlik səlahiyyəti dövrünün birinci ilinin yekunları fonunda özünü təsdiq edən reallıq ondan ibarətdir ki, Azərbaycan öz yolu ilə inamla addımlayır.

*Ardı 6-cı səh.*

◆ Unudulmazlar

## Həkim Əliyevlərin nəğməkar qızı

...80-ci illərin sonlarında ansamblın fəaliyyətində süni maneələr yaradılmağa başlandı. Çəkilişlərə çağırmırdılar, qastrol səfərlərinə aparmırdılar, konsertlərdən adlarını çıxarırdılar. Əvvəldən təyin olunmuş konsertə və ya səfərə bir gün qalmış xəbər gəlirdi ki, "Dan ulduzu"nu siyahıdan çıxarıblar. Müxtəlif problemlər, çətinliklər yaradırdılar. Anam başa düşürdü ki, bu, təsadüfi deyil, bilərəkdən edilir, kimsə daim mane olur. Artıq Heydər Əliyevin Moskvada Qorbaçovla problemləri başlamışdı, SSRİ Nazirlər Sovetindən istefa vermişdi və onun əleyhinə kampaniya başladılmışdı. Məhz Heydər Əliyevin baldızı olduğu üçün anama da ansambl vasitəsilə təzyiqlər göstərirdilər. Gülarə xanım da bu siyasi oyunlara qurban getdiyini başa düşürdü. Anam Heydər Əliyevi çox istəyirdi, hörmət edirdi. Heydər Əliyev də anamı çox istəyir, yaradıcı şəxsiyyət kimi hörmətlə yanaşırdı. Ansamblı da çox bəyənirdi.



Zərifə, Əziz və Gülarə Əliyevlər

Bəzən evdə anam pianoda çalar, Zərifə xalamla Heydər Əliyev də oxuyardılar. Ancaq ailə münasibətlərini işə qatmaq ədalətsizlik idi. Hansısa çirkli siyasi oyunlara görə 20 illik tarixin üzərindən xətt çəkmək istəyirdilər. Bu ədalətsizlik anamı incidirdi, çox narahat olurdu. Sanki havası çatmırdı, boğulurdu. Axı o, bu sənətlə nəfəs alırdı, yaşayırdı. Anam üçün musiqi, ansambl həyat idi...

*Bax: səh. 3*

# 115 ölkə, 432 nümayəndə və Bakıdan dünyaya qlobal tərəfdaşlıq çağırışı

## **Baş nazir Novruz MƏMMƏDOV:** "İşğal altındakı ərazilərdən narkotik vasitələrin istehsalı və tranziti üçün istifadə edilməsi narkobiznesin və beynəlxalq terrorizmin genişlənməsinə münbit şərait yaradır"







*Əvvəli 1-ci səh.*

### Baş nazir Novruz Məmmədovun çıxışı

Hörmətli konfrans iştirakçıları.

Dəyərli qonaqlar.

İlk növbədə, hər birinizi Bakıda salamlayır, Azərbaycana "Xoş gəlmisiniz" deyirəm.

Narkotiklərlə Mübarizə üzrə Beynəlxalq Konfrans dünyada narkotiklərə qarşı mübarizə sahəsində təşkil edilən ən mötəbər tədbirlərdən biridir. Əminəm ki, bu konfrans narkotiklərin qanunsuz dövriyyəsi və çirkli pulların yuyulması ilə mübarizədə beynəlxalq təcrübənin öyrənilməsinə, müvafiq sahədə əməkdaşlığın daha da güclənməsinə öz töhfəsini verəcəkdir. Konfrans, həmçinin digər dövlətlərlə səmərəli təcrübə mübadiləsinə imkan yaradacaqdır.

Beynəlxalq səviyyədə narkotiklərə qarşı mübarizə sahəsində ixtisaslaşan qurumları və ekspertləri bir araya gətirən qlobal əhəmiyyətli bu tədbirin Bakıda keçirilməsi Azərbaycan Respublikasının narkotiklərə qarşı mübarizədə beynəlxalq əməkdaşlığına verilən qiymətdir. Xüsusi vurğulamaq istəyirəm ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 15 noyabr tarixli Sərəncamı ilə Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfransın 2019-cu ildə Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsi yaradılıb. Tədbirlə bağlı bəzi təşkilati məsələlərin tənzimlənməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarına əsasən işçi qrupu yaradılıb və Tədbirlər Planı təsdiq edilib.

Son illər Azərbaycan bir çox mötəbər beynəlxalq tədbirlərə evsahibliyi etmişdir. Bu sırada BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunu, Dünya Dini Liderlərinin Sammitini, Qlobal Bakı Forumunu, Bakı Beynəlxalq Humanitar Forumunu, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunu, "Cənub qaz dəhlizi" Məşvərət Şurasının toplantılarını, "Avroviziya" mahnı müsabiqəsini, I Avropa Oyunlarını, IV İslam Həmrəyliyi Oyunlarını və digər tədbirləri qeyd etmək olar.

Bu ənənənin davamı olaraq Azərbaycan cari ildə də bir sıra mühüm beynəlxalq tədbirlərə evsahibliyi edəcəkdir. Bir neçə gündən sonra "Formula-1" Bakı Qran-Prisi başlayır. Bundan başqa, 2019-2022-ci illərdə Azərbaycanın sədrlik edəcəyi Qoşulmama Hərəkatının Zirvə Görüşü, Dünya dini liderlərinin II Bakı sammiti, Avropa Gənclər Olimpiya Festivalı, futbol üzrə UEFA Avropa Liqasının final oyunu da Bakıda keçiriləcəkdir.

Yenidən müstəqillik qazanmasının 28-ci ilini yaşayan Azərbaycan Respublikasının çoxşaxəli xarici siyasəti bütün ölkələrlə qarşılıqlı surətdə faydalı əməkdaşlıq və tərəfdaşlıq prinsiplərinə əsaslanır. Azərbaycan həm ikitərəfli, həm də çoxtərəfli formatda sülhə və təhlükəsizliyə töhfə vermək üçün müxtəlif beynəlxalq platformalarda fəal iştirak edir.

Azərbaycan artıq beynəlxalq aləmdə özünü etibarlı tərəfdaş kimi təsdiq etmişdir. Azərbaycanın təşəbbüskarı və iştirakçısı olduğu transmilli enerji, nəqliyyat-logistika layihələri ölkəmizi qlobal və regional miqyasda mühüm tərəfdaşa çevirmişdir. Respublikamız Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən enerji və nəqliyyat dəhlizlərində aparıcı rola malikdir. Tərəfdaşlarımızla birgə həyata keçirdiyimiz Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP və tikilməkdə olan TAP boru kəmərləri neft və qaz resurslarını Avropaya nəql etməklə böyük bir regionun enerji xəritəsini tamamilə dəyişmişdir. Bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır.

Azərbaycan Amerika Birləşmiş Ştatları ilə bir çox sahələrdə, o cümlədən təhlükəsizlik, qlobal risk və təhdidlərə qarşı mübarizə sahələrində qarşılıqlı faydalı əməkdaşlıq edir. ABŞ-ın rəhbərlik etdiyi beynəlxalq antiterror koalisiyasına qoşulan ilk dövlətlərdən biri Azərbaycan olmuşdur. Azərbaycan və ABŞ regional və qlobal səviyyədə terrorizmlə, narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizədə birgə fəaliyyət göstərirlər.

Hörmətli konfrans iştirakçıları!

Narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıq müasir dünyanı ciddi narahat edən problemlərdən biridir. Əfsuslar olsun ki, narkomaniya bu gün dünyanın bir çox ölkə və dövlətlərində dəhşətli bəlaya çevrilməkdədir. Bu bəla həm narkotik istifadəçisinin müxtəlif cinayətlər törətməsinə səbəb olur, həm də cəmiyyətin mənəvi və intellektual potensialının aşınmasına, genefondun tənəzzülünə və digər mənfi hallara gətirib çıxarır. Narkotiklərin qanunsuz dövriyyəsi cinayətkarlığın artmasına səbəb olmaqla yanaşı, həm də terrorizmin maliyyə mənbəyi kimi beynəlxalq təhlükəsizliyə əsas təhdidlərdən biri hesab edilir.

Müstəqilliyimizin ilk illərindən başlayaraq ümummilli liderimiz Heydər Əliyev cəmiyyətin sağlam inkişafının vacibliyini vurğulayaraq demişdir: "Narkomaniya və narkobizneslə mübarizə hər bir ölkənin, xalqın, millətin fiziki və əqli sağlamlığı uğrunda aparılan mübarizəsidir".

Ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin həyata keçirdiyi irimiqyaslı tədbirlərin icrası nəticəsində Azərbaycan dünya ölkələri arasında özünəməxsus yer tutmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin narkomaniyanın dəf edilməsində dövlət və hüquq mühafizə orqanlarından konkret nəticələr tələb etməsi bu ümumbəşəri fəlakətin ölkəmizdə yayılması təhlükəsinə Azərbaycanın qətiyyətli mövqeyini əks etdirir.

Respublikamızda sosial-iqtisadi sabitliyin təmin edilməsi, insanların sağlamlığının, rifahının və mənəvi-əxlaqi dəyərlərinin qorunması siyasəti narkomanlığa, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizəni prioritet vəzifə kimi müəyyən etmişdir. Bu sahədə dövlət proqramları qəbul edilmiş, qanunvericilik bazası təkmilləşdirilmiş, institusional islahatlar həyata keçirilmiş, Azərbaycan müxtəlif beynəlxalq təşəbbüslərə qoşulmuşdur.

Hələ 1996-cı ildə Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası yaradılmışdır. Prezident İlham Əliyev tərəfindən bu sahə üzrə son 15 ildə 13 fərman, 56 sərəncam imzalanmış, Milli Məclis tərəfindən 38 qanun qəbul edilmiş, bir neçə dövlət proqramı hazırlanmışdır. Azərbaycan narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə ilə bağlı bir sıra beynəlxalq konvensiyalara qoşulmuşdur.

Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəni vahid strategiya çərçivəsində həyata keçirmək Azərbaycan dövlətinin əsas prioritetlərindən biridir. Bu istiqamətdə təbliğat işlərinin əhatə dairəsi genişlənmiş, kompleks profilaktik tədbirlər görülmüşdür.

Beləliklə, ölkəmizdə narkotik vasitələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə, narkomanlığa qarşı mübarizənin gücləndirilməsi, narkomanlığa düçar olmuş şəxslərin müalicə edilməklə sağlam həyata qaytarılması, müalicə-bərpa sahəsindəki fəaliyyətin müasir dövrün tələblərinə uyğunlaşdırılması üçün elmi və praktiki araşdırmaların aparılması və digər məsələlərin həlli istiqamətində sistemli fəaliyyət davam etdirilməkdədir.

Hörmətli konfrans iştirakçıları!

Bu gün Azərbaycan Respublikası Prezidentinin apardığı məqsədyönlü siyasət və həyata keçirdiyi dərin iqtisadi islahatlar nəticəsində ölkəmiz uğurla inkişaf edir. Ölkədə görülən işlərə beynəlxalq təşkilatlar, dünyanın aparıcı maliyyə qurumları tərəfindən yüksək qiymət verilir. Xüsusi qeyd etməliyəm ki, Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan dünyada 25-ci yerdədir.

Bizim bütün iqtisadi göstəricilərimiz müsbətdir. Onlardan bəzilərini diqqətinizə çatdırmaq istəyirəm. Keçən il Azərbaycanda iqtisadi artım 1,4 faiz olmuşdur. Qeyri-neft sektoru 1,8 faiz, qeyri-neft sənaye məhsulu isə 9,1 faiz artmışdır.

Ölkə iqtisadiyyatına son 15 il ərzində 250 milyard dollardan artıq sərmayə qoyulmuş və Azərbaycan iqtisadiyyatı üç dəfədən çox artmışdır. Yoxsulluq səviyyəsi 49 faizdən 5,4 faizə endirilmiş, 2 milyona yaxın yeni iş yeri yaradılmışdır və hazırda işsizlik 5 faiz səviyyəsindədir.

Ötən il Azərbaycan üçüncü peykini orbitə çıxararaq, kosmik dövlət kimi öz mövqeyini daha da möhkəmləndirdi. 2018-ci ildə "Cənub qaz dəhlizi"nin rəsmi açılışı olmuş, Ələt Beynəlxalq Dəniz Ticarət Limanı işə başlamışdır. Beləliklə, Azərbaycan, həm də dünyada logistik mərkəz və tranzit ölkə kimi tanınmışdır.

Son illər ərzində ölkədə infrastrukturun yaradılması ilə bağlı möhtəşəm işlər görülmüşdür. 2004-cü ildən bu günə qədər, ümumilikdə, 15 min kilometr avtomobil yolu çəkilmişdir. Təsadüfi deyil ki, Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycan infrastrukturun inkişafı üzrə dünyada 30-cu, yol infrastrukturunun keyfiyyətinə görə isə 34-cü yerdədir.

Azərbaycan Respublikasının sosial-iqtisadi həyatında əldə olunmuş nailiyyətlər narkomaniyaya qarşı mübarizənin gücləndirilməsində mühüm rol oynamaqla yanaşı, bu sahədə hələ də mövcud olan nöqsanların aradan qaldırılması məqsədilə dövlət və hüquq mühafizə orqanları qarşısında konkret tələblər qoyur.

Aparılmış islahatlar və həyata keçirilmiş tədbirlər nəticəsində son 5 ildə dövriyyədən 8 ton 354 kiloqram narkotik vasitə çıxarılmışdır. Ölkəmizdə ən müasir avadanlıqlarla təchiz olunmuş yeni narkoloji müalicə mərkəzi tikilib istifadəyə verilmişdir.

Beynəlxalq təcrübə nəzərə alınmaqla aidiyyəti orqanların mütəxəssislərinin iştirakı ilə ali və orta ixtisas təhsili müəssisələrində, internat məktəblərində, cəzaçəkmə müəssisələrində mütəmadi olaraq maarifləndirmə tədbirləri, sosial sorğular keçirilmiş, təcrübə mübadiləsi məqsədilə beynəlxalq təşkilatlarla birgə seminarlar, təlimlər təşkil edilmişdir.

Bir məqamı da vurğulamaq istərdim ki, dünya ictimaiyyəti hərbi münaqişə zonalarından narkotiklərin qanunsuz dövriyyəsi üçün istifadə olunmasından narahatlıq hissi keçirir. Azərbaycan da belə bir problemlə üzləşmişdir. Bildiyiniz kimi, artıq 25 ildən çoxdur ki, Azərbaycanın tarixi torpaqları olan Dağlıq Qarabağ və ətraf 7 rayon Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. İşğal altındakı həmin ərazilərdən narkotik vasitələrin istehsalı və tranziti üçün istifadə edilməsi narkobiznesin və beynəlxalq terrorizmin genişlənməsinə münbit şərait yaradır.

Ermənistan tərəfindən işğal olunmuş ərazilərimizə cəlb edilən şirkətlərin iqtisadi fəaliyyəti işğalın davam etdirilməsinə, eləcə də narkotrafik və digər cinayət hallarına şərait yaradır. Bunların aradan qaldırması üçün işğal olunmuş ərazilərdə iqtisadi, maliyyə fəaliyyətlərinin, pul köçürmələrinin, sərmayə yatırılmasının qarşısı alınmalıdır. Azərbaycan tərəfindən sözügedən vəziyyətə nəzarət edilməsi məqsədilə müvafiq "qara siyahılar" tərtib olunur. Bununla bağlı, Azərbaycan işğal olunmuş ərazilərdə qanunsuz fəaliyyətə cəlb olunan fiziki və hüquqi şəxslərin mənsub olduğu ölkələri müvafiq tədbirlər görməyə çağırır.

Hazırkı beynəlxalq konfransın bu cür qeyri-qanuni iqtisadi fəaliyyətin qarşısını almaq üçün aidiyyəti ölkələrə birbaşa müraciət etmək imkanı vardır. Ümidvarıq ki, bu istiqamətdə görülən ciddi tədbirlər öz müsbət töhfəsini verəcəkdir.

Hörmətli konfrans iştirakçıları, əminəm ki, siz Narkotiklərlə Mübarizə üzrə Beynəlxalq Konfransda səmərəli müzakirələr, qarşılıqlı hörmət prinsipləri əsasında açıq dialoq aparacaq, Azərbaycan paytaxtından bəşəri bəlaya qarşı mübarizənin gücləndirilməsi üçün dünyaya yeni mesajlar verəcəksiniz.

Diqqətinizə görə minnətdaram, konfransın işinə uğurlar arzulayıram.

* * *

Azərbaycan Respublikası Baş nazirinin müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri **Əli Həsənov** konfransın yüksək səviyyədə təşkili üçün yaradılan şəraitə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Beynəlxalq əməkdaşlığın gücləndirilməsi, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizəyə dair mühüm məsələlərin müzakirəsi, təcrübə və məlumat mübadiləsi baxımından Bakı konfransının önəmini vurğulayan Baş nazirin müavini qeyd etdi ki, dünyada geniş iqtisadi inteqrasiyanın, ticarət və böyük həcmdə yükdaşımaların təşkili üçün nəqliyyat əlaqələrinin genişlənməsi narkotik vasitələrin yayılması ilə müşayiət olunur. Azərbaycan Prezidenti İlham Əliyevin son 15 ildə yürütdüyü uğurlu iqtisadi siyasət nəticəsində iqtisadiyyatımızın tərəqqisi, böyük beynəlxalq layihələrin icrası, Bakı-Tbilisi-Qars dəmir yolunun, beynəlxalq dəniz limanının, avtomobil yollarının, hava limanlarının inşası və turizm sektorunun inkişafı ölkəmizə marağı artırıb. Bunun nəticəsində yük daşımalarının hədsiz dərəcədə artması beynəlxalq narkomafiyanın diqqətindən yayınmır və narkotik vasitələrin qanunsuz daşınması üçün cəhdlər göstərilir.

Ölkəmizdə narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirlərindən danışan Əli Həsənov bildirdi ki, ümummilli lider Heydər Əliyevin 1996-cı il 26 avqust tarixli Fərmanı ilə Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının yaradılması ilə bu problemlə mübarizə dövlət səviyyəsinə qaldırılıb. Azərbaycan beynəlxalq birliyin bütün səylərini dəstəkləyərək BMT-nin müvafiq konvensiyalarına qoşulub, ölkəmizdə beynəlxalq standartlara uyğun normativ milli hüquqi baza yaradılıb.

Azərbaycanda narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizəyə dair üç Dövlət Proqramının uğurla icra edildiyini vurğulayan Baş nazirin müavini dördüncü proqramın hazırlanmasının artıq başa çatdırıldığını qeyd etdi. Bildirdi ki, ölkəmizdə vətəndaşların sağlamlığının qorunması, asudə vaxtlarının səmərəli təşkili, faydalı işlə məşğul olmalarına şərait yaradılması məqsədilə genişmiqyaslı tədbirlər görülüb, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə beynəlxalq əməkdaşlıq diqqət mərkəzində saxlanılıb, mötəbər qurumlarla və bir sıra dövlətlərlə sıx münasibətlər qurulub.

Əli Həsənov dedi ki, müasir nəqliyyat infrastrukturuna malik olan Azərbaycan beynəlxalq yük daşımalarında Avropa ilə Asiya arasında mühüm tranzit ölkəyə çevrilib. Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı əsas problem də xaricdən ölkə ərazisinə qaçaqmalçılıq yolu ilə gətirilən narkotiklərlə bağlıdır. Bu, ilk növbədə, Şərqdən Qərbə tranzit baxımından respublikanın əlverişli coğrafi mövqedə yerləşməsi ilə şərtlənir.

Sön dövrlər narkotiklərin qanunsuz dövriyyəsinə qarşı daxili işlər, gömrük, sərhəd, təhlükəsizlik orqanları tərəfindən mübarizə işi xeyli gücləndirilib, müxtəlif marşrutlarla narkotiklərin qaçaqmalçılıq yolu ilə daşınması hallarının aşkarlanması üzrə qabaqlayıcı profilaktik və əməliyyat-axtarış tədbirləri həyata keçirilib, cinayətkarlardan külli miqdarda narkotik vasitə götürülüb.

Narkoloji xidmətin keyfiyyətinin yaxşılaşdırılması üçün dövlət başçısının tapşırığına uyğun olaraq, Səhiyyə Nazirliyi tərəfindən Bakıda Yeni Narkoloji Mərkəzin istifadəyə verildiyini vurğulayan Əli Həsənov diqqətə çatdırdı ki, uğurlu mübarizə tədbirləri çərçivəsində təkcə Dövlət Gömrük Komitəsi tərəfindən ötən il və bu ilin son üç ayında sərhəd-keçid məntəqələrindən 1 ton 714 kiloqram narkotik vasitə dövriyyədən çıxarılıb.

Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin ölkəmizin sosial və təhlükəsizlik siyasətinin prioritetlərindən olduğunu vurğulayan Dövlət Komissiyasının sədri bildirdi ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində torpaqlarımızın 20 faizi 27 ildir işğal altında saxlanılır, 1 milyondan artıq soydaşımız qaçqın və köçkün vəziyyətinə düşüb. BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnaməyə, ATƏT-in və Avropa Şurasının müvafiq qərarlarına baxmayaraq, Ermənistan torpaqlarımızı bu gün də işğal altında saxlayır. İşğal nəticəsində Azərbaycanın İranla dövlət sərhədinin 132 kilometrlik hissəsi nəzarətsiz zonaya çevrilib. Bu fakt BMT-nin Narkotiklər və Cinayətkarlıq İdarəsinin 2010-cu il Dünya Narkotiklər Hesabatında da əksini tapıb. Həmin ərazilərdən Avropaya və digər ölkələrə güclü narkotik axını həyata keçirilir. İşğal olunmuş torpaqlarımızda ermənilər tərəfindən narkotik tərkibli bitkilərin becərilməsi, yeni növ narkotiklərin sintezi üzrə laboratoriyaların açılması, narkotiklərin istehsalı və tranzit bazasının yaradılması, onun satışından əldə edilən külli miqdarda gəlirin yeni silahların alınması, terrorçu qrupların yaradılması və onlara təlimlər keçirilərək digər münaqişə zonalarına istiqamətləndirilməsi təhlükənin miqyasını daha da artırır.

Dünyada 275 milyon insanın narkotik istifadəçisi olduğunu, narkosənayenin birillik dövriyyəsinin 400 milyard dollar təşkil etdiyini deyən Əli Həsənov qeyd etdi ki, Dünya Səhiyyə Təşkilatının hesabatına görə, hər il narkoistifadədən ölənlərin sayı 450 minə çatıb. Bu, müasir dövrdə narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı daha səmərəli mübarizədə konvensiyalara, mübarizə üsullarına yenidən baxılmasının və ciddi islahatların reallaşdırılmasının zəruriliyini ortaya qoyur.

Baş nazirin müavini çıxışının sonunda Azərbaycan Prezidentinin bu problemlə bağlı müəyyənləşdirdiyi strategiyanın bundan sonra da uğurla reallaşdırılacağına, gənc nəslin sağlam və yüksək ideallar ruhunda tərbiyəsi, genefondumuzun qorunması istiqamətində ciddi və barışmaz tədbirlər görüləcəyinə əminliyini bildirdi.

* * *

Narkotik vasitələrin qanunsuz dövriyyəsinin milli, regional və beynəlxalq səviyyələrdə cinayət növü kimi qəbul olunmasını, bu problemin həllinin beynəlxalq əməkdaşlıq tələb edən ümumi məsuliyyətə çevrildiyini deyən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı **Səfər Mehdiyev** bildirdi ki, bu baxımdan, beynəlxalq təşkilatların, dünya ölkələrinin aidiyyəti qurumlarının dəstəyi ilə narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı birgə əməkdaşlıq çərçivəsində mübarizə tədbirləri mühüm əhəmiyyət kəsb edir. Komitə sədri qeyd edib ki, bəşəriyyətin bu dəhşətli bəlasına qarşı ölkəmizin ayrı-ayrı dövlət strukturları, hüquq mühafizə orqanları, qeyri hökumət təşkilatları, kütləvi informasiya vasitələri, təhsil və səhiyyə qurumları birgə mübarizə aparmaqla bu bəlanın qarşısının alınmasında uğurla fəaliyyət göstərir.

Səfər Mehdiyev diqqətə çatdırdı ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı sərəncam, fərman və normativ-hüquqi aktlarla ölkəmizdə narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizənin əsas strateji xətti müəyyənləşdirilib. "Gömrük sahəsində hüquqpozmaların, o cümlədən narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarşısının vaxtında alınması və gömrük xidmətində əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi məqsədilə hədəflərin idarə olunması sistemi və mobil qruplar yaradılıb", - deyən gömrük komitəsinin sədri əlavə etdi ki, bunlarla yanaşı, quru, hava və dəniz yolları ilə daşınan mal və nəqliyyat vasitələrinin yoxlanılması məqsədilə dövlət başçısının diqqət və qayğısı nəticəsində Azərbaycan Respublikası Avropa ölkələri sırasında öndəgedən ölkələrdən biri olaraq bütün gömrük sərhəd-keçid məntəqələrində ən müasir tipli zəruri avadanlıqlar quraşdırılıb. O vurğuladı ki, bu avadanlıqlar vasitəsilə malların idxalı və ixracı zamanı ölkəmizə gətirilən və aparılan, eyni zamanda, ölkə ərazisində tranzit daşınan yüklərin millimetr ölçüdə müəyyənləşdirilməsi təmin edilir.

"Əminliklə bildirmək istərdim ki, ölkəmizdə narkomanlığa və narkotiklərin qanunsuz dövriyyəsinə qarşı təşkilati-hüquqi, institusional tədbirlər həyata keçirilməkdədir. Mövcud tədbirlərin həyata keçirilməsində Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi də bu istiqamətdə daim prioritetlərini müəyyənləşdirir və mübarizə tədbirlərini gücləndirir. Məhz görülən bu tədbirlər nəticəsində 2018-ci il ərzində gömrük orqanları tərəfindən 24 narkoqrup aşkar edilib, ümumi çəkisi 1 ton 193 kiloqram olan narkotik maddələr dövriyyədən çıxarılıb, 2019-cu ilin üç ayı ərzində isə 16 narkoqrup barəsində istintaq hərəkətləri aparılıb, ümumilikdə 520 kiloqram narkotik maddələr tutularaq saxlanılıb", - deyə gömrük general-leytenantı əlavə etdi.

Səfər Mehdiyev diqqətə çatdırdı ki, Dünya Gömrük Təşkilatının ölkəmizdə təsis edilmiş Regional Tədris Mərkəzi, Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində mütəmadi olaraq narkotiklərin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə istiqamətində regional və beynəlxalq səviyyədə tədbirlər keçirilir.

"Dövlət Gömrük Komitəsinin Kinoloji Mərkəzində narkotik vasitələrin aşkarlanmasında istifadə olunan xidməti axtarış itlərinin təlimi həyata keçirilməkdədir. Bu sahədə qabaqcıl təcrübəmiz və səmərəli fəaliyyətimiz nəzərə alınmaqla, Dövlət Gömrük Komitəsinin Kinoloji Mərkəzinə Dünya Gömrük Təşkilatının Regional Mərkəzi statusu verilib", - deyən Səfər Mehdiyev diqqətə çatdırdı ki, Azərbaycan Respublikasının digər dövlətlərlə gömrük işi sahəsində imzaladığı ikitərəfli beynəlxalq sənədlərə əsasən bir sıra dövlətlərin gömrük orqanlarına xidməti axtarış üzrə təlim keçmiş itlər hədiyyə edilib və narkotiklərin aşkarlanmasında yüksək nəticələr əldə olunub.

Səfər Mehdiyev XXXVI beynəlxalq konfransın narkotiklərlə mübarizə sahəsində gələcək prioritetlərin müəyyən olunmasına, narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizədə beynəlxalq əməkdaşlığın səmərəliliyinin artırılmasına mühüm töhfə verəcəyinə əminliyini bildirdi.

* * *

ABŞ-ın Azərbaycandakı səfiri **Örl Litzenberqer** ölkəmizdə yenicə fəaliyyətə başlamasına baxmayaraq, xalqımızın yüksək qonaqpərvərliyinin qısa müddətdə onda böyük məmnunluq doğurduğunu ifadə etdi.

Diplomat bildirdi ki, Azərbaycan Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfransa (IDEC) yüksək səviyyədə evsahibliyi etməklə bu mühüm məsuliyyətin öhdəsindən uğurla gəlib. O, konfransın yüksək səviyyədə təşkilinə görə Azərbaycan Prezidenti İlham Əliyevə və aidiyyəti şəxslərə və qurumlara minnətdarlığını bildirdi.

Narkomanlığın və narkotik vasitələrin qanunsuz dövriyyəsinin cəmiyyətdə ciddi fəsadlara yol açdığını diqqətə çatdıran diplomat bu sahədə uğurlu mübarizədə beynəlxalq əməkdaşlığın önəmini xüsusi vurğuladı. Qeyd etdi ki, Azərbaycan bu istiqamətdə beynəlxalq əməkdaşlığa mühüm töhfələr verir.

Səfir bildirdi ki, ABŞ-ın etibarlı tərəfdaşı olan Azərbaycan 2002-ci ildən Əfqanıstanda beynəlxalq sülhməramlı əməliyyatlarda fəal iştirak edir, həmin missiyanın dəstəklənməsi üçün fəal logistik dəstək verir. Bu töhfələr narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə də mühüm rol oynayır. Azərbaycan bu dəstəyi ABŞ ilə yanaşı, digər ölkələrə də göstərir.

Səfir Örl Litzenberqer qeyd etdi ki, mühüm geosiyasi məkanda yerləşən Azərbaycanda nəqliyyat infrastrukturunun müasirləşdirilməsi ölkədə digər sahələrlə yanaşı, iqtisadiyyatın və ticarətin inkişafına da əhəmiyyətli töhfə verib. Azərbaycan dövlətinin rəhbərliyi yeni müasir ticarət yollarından narkotik vasitələrin dövriyyəsində istifadə edilməsinin qarşısını almaq üçün qətiyyətli tədbirlər həyata keçirir. Bu mübarizədə birgə əməkdaşlıq mühüm əhəmiyyət kəsb edir.

Diplomat konfransın narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizədə əməkdaşlığın gücləndirilməsi, yeni tərəfdaşlıqların qurulması baxımından əhəmiyyətini vurğulayaraq tədbirin işinə uğurlar arzuladı.

Açılış çıxışlarından sonra birgə foto çəkdirildi.

Sonra satış-sərgisinə baxış keçirildi.

Daha sonra beynəlxalq konfrans işini regional işçi qrupların müzakirəsi və seminar sessiyaları ilə davam etdirdi.

Qeyd edək ki, beynəlxalq konfransın ölkəmizdə keçirilməsi barədə ABŞ Ədliyyə Departamentinin Narkotiklərlə Mübarizə Administrasiyasının təklifi olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 15 noyabr tarixli Sərəncamı ilə Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfransın 2019-cu ildə Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsi yaradılıb. Tədbirlə bağlı bəzi təşkilati məsələlər barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 dekabr tarixli Sərəncamına əsasən işçi qrupu yaradılıb və konfransın Tədbirlər Planı təsdiq edilib.

Bəşəriyyəti ciddi narahat edən, yeni təhlükələrə və bəlalara yol açan narkotiklərə tələbatın azaldılması yollarının tapılması baxımından nadir platforma olan beynəlxalq konfransın əsası 1983-cü ildə qoyulub. Sonradan o, 130-dan çox ölkədən olan nümayəndələrin iştirakı ilə keçirilən ümumdünya forumuna çevrilib.

Aprelin 17-dək davam edəcək Bakı konfransında narkotiklərlə mübarizə üzrə müzakirələr aparılacaq, Azərbaycan paytaxtından dünyaya yeni mesajlar veriləcək.

# Həkim Əliyevlərin nəğməkar qızı

◆ Unudulmazlar

**... Deyirlər, insan doğulan an səmada yeni bir ulduz yaranır, parlayır...**

**Bəxt ulduzu...**

**Və o ulduz bir də həmin insan dünyadan köçən anda sönür...**

**O da parlaq ulduz altında dünyaya gəlmişdi. Ulduzu da, necə deyərlər, üzünə, bəxtinə gülmüşdü. Elə əsl ulduz həyatı yaşamışdı. Amma tək özü yaşamamışdı, başqalarına da yaşatmışdı. Çünki məhz onun yaratdığı "Dan ulduzu" Azərbaycanın musiqi səmasında parlaq ulduza çevrilərək onlarla istedadlı gəncin sənət yoluna işıq tutdu. Onları xalqa tanıtdı, məşhurlaşdırdı, sevdirdi, ulduz etdi.**

*Gülarə Əziz qızı Əliyeva*

Gülarə Əziz qızı Əliyeva 17 noyabr 1933-cü ildə Bakıda anadan olub. 1955-ci ildə Azərbaycan Dövlət Konservatoriyasını bitirib. Səid Rüstəmov adına xalq çalğı alətləri orkestrində, eləcə də Əhsən Dadaşov adına xalq çalğı alətləri ansamblında çalışıb. 1968-ci ildə klassik və xalq çalğı alətlərinin sintezindən ibarət "Dan ulduzu" ansamblını yaradıb və ömrünün sonuna kimi rəhbərlik edib. Bu ansamblla Əlcəzair, Suriya, Livan, Anqola, İtaliya, Bolqarıstan, Efiopiya, İsveçrə, Hindistan, Finlandiya və digər xarici ölkələrdə çıxış edib. Eyniadlı muğamlar əsasında "Şüştər" rapsodiyası, "Humayun" süitası, "Bayatı-kürd", "Şur" fantaziyalarının müəllifidir. Ansambl üçün bir sıra xalq mahnısını aranjeman edib.

1966-1989-cu illərdə M.Əliyev adına İncəsənət İnstitutunun Musiqi nəzəriyyəsi kafedrasının müdiri, o cümlədən institutun elmi şurasının üzvü olub.

Həkim Əziz Əliyevin qızı, oftalmoloq-akademik Zərifə Əliyevanın, endokrinoloq Tamerlan Əliyevin və onkoloq Cəmil Əliyevin bacısıdır. Ulu öndər Heydər Əliyevin baldızıdır.

1991-ci il iyulun 27-də vəfat edib. Ölümündən sonra "Dan ulduzu" ansamblına onun adı verilib.



*XX əsr Azərbaycan musiqisinə ulduzlar pleyadası bəxş etdi. Vətəninin adını xarici ölkələrdə tanıtdı, mədəniyyətini layiqincə təmsil etdi, musiqisinə öz töhfələrini verdi. Bununla da adını qızıl hərflərlə tariximizə həkk etdi. Dünyada klassik və xalq çalğı alətlərinin sintezindən ibarət ilk ansamblın yaradıcısı, Şərqdə ilk qadın ansambl rəhbəri kimi... Azərbaycanın görkəmli musiqiçisi, pianoçusu, sənətşünaslıq elmləri namizədi, əməkdar incəsənət xadimi kimi...*

*Və sadəcə əfsanəvi "Dan ulduzu" ansamblının yaradıcısı, bədii rəhbəri Gülarə Əliyeva kimi...*

*"Unudulmazlar" rubrikasında görkəmli sənətkarın sənət və həyat yoluna yeganə yadigarı, Bakı Musiqi Akademiyasının Musiqi tarixi kafedrasının müəllimi Ayəndə Əliyevanın xatirələrindən boylanacağıq...*



## Əziz Əliyevin şən, dəcəl övladı

*Hər kəs yer üzünə bir missiya ilə gəlir. Onun da çiyinlərinə Yaradan o missiyanı qoymuşdu. Yazı Yazan taleyini, qədərini notlarla yazmışdı sanki, musiqini ruhuna, qanına, canına hopdurmuşdu... Yoxsa həkim ailəsində ilk musiqiçi o olmazdı...*

- Gülarə xanım görkəmli dövlət və elm xadimi, tibb elmləri doktoru Əziz Əliyevin ailəsində dünyaya göz açmışdı. Evin şən, dəcəl qızı idi. Əslində, musiqiçi olacağı hələ uşaq yaşlarından evdə hamıya agah olmuşdu. Çünki bütün günü evdə həm oxuyar, həm oynayardı. Şıltaqlığı ilə ailədə hamının üzünü güldürərdi. Anamın musiqiyə həvəsini, meylini görən babam onu Bülbül adına orta ixtisas musiqi məktəbinə yazdırır: Kövkəb Səfərəliyevanın sinfinə.

Maraqlı uşaqlıq illəri olub. Həmin çağlarını xoş xatirələrlə anardı. Atasını dəhşət çox sevirdi. Özü də zahirən ona çox bənzəyirdi. Valideynləri haqqında danışanda "Əziz papa", "Leyli mama" deyərdi - biz onun dilindən ancaq bu cür eşitmişik. Atasının xeyirxahlığı, gözəl xasiyyəti, sadəliyi, insanlara necə kömək etməsindən həmişə ağızdolusu danışardı.

Çox mehriban ailə olublar. Gəliş-gedişli, qonaq-qaralı... Azərbaycanın o dövr görkəmli ziyalılarının çoxu onlara gələrmiş. Evdə daim yaradıcı, elmi söhbətlər edilərmiş. Anam o cür mühitdə böyümüşdü.

Ailədə hamı həkim idi - atası, bacısı Zərifə, qardaşı Tamerlan. Sonradan evin sonbeşiyi Cəmil də bu ailə ənənəsini davam etdirdi. Anam da tibb sahəsində bilgili idi. Ancaq ailədə yeganə adam idi ki, musiqiyə yönəldi. Hamı da bu qərarını anlayışla qarşıladı. Çünki necə istedadlı olduğunu görürdülər. Və o istedadın qarşısına sipər çəkmək sadəcə ədalətsizlik olardı. Əliyevlər ailəsində isə ədalətsizlik əsla ola bilməzdi.



## "O qayğısız, o əziz tələbəlik illəri"

*Peşəkar musiqiçi olmağı qarşısına məqsəd qoyan Gülarə Əliyeva həyat missiyası uğrunda ilk addımlarını atmağa başlayır. Azərbaycan Dövlət Konservatoriyasına daxil olmaq üçün imtahan verir. Üzeyir Hacıbəyli kimi dahidən "hə" cavabı alıb, ali təhsilə başlayır. Özü də iki fakültədə...*

- İstedadlı pianoçu idi. Mükəmməl musiqi duyumu vardı. Amma musiqi bəstələmək üçün musiqişünas olmaq lazım idi. Ona görə anam konservatoriyanın fortepiano və tarix-nəzəriyyə fakültəsində paralel təhsil alıb. Unudulmaz tələbəlik illəri olub. O dövrün tanınmış müəllimlərindən dərs alıb. Bəzən akademiyada anamla eyni illərdə təhsil alan şəxslərlə qarşılaşıram. Gülarə xanımın qızı olduğumu bilən kimi onun haqqında o qədər xoş sözlər deyirlər. Mənə çox müsbət təsir bağışlayır. Necə xoşbəxt adamam ki, anam özü haqqında belə dəyərli xatirələr qoyub gedib.

Anam "Bəstəkar Fikrət Əmirovun yaradıcılığı" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. Dəyərli əsərdir, onu kitab kimi nəşr etdirmək fikrim var. 23 il İncəsənət İnstitutunun Musiqi nəzəriyyəsi kafedrasına rəhbərlik edib, o cümlədən institutun elmi şurasının üzvü olub. 1969-cu ildən dosent idi, elmi-pedaqoji fəaliyyət göstərib. Əvvəlcə Azteleradio, sonra isə S.Rüstəmov adına Xalq Çalğı Alətləri Orkestrində və Əhsən Dadaşovun ansamblında konsertmeyster işləyib. Çoxsaylı əsərlər bəstələyib.

## Musiqi kəhkəşanında qəfil parlayan "Dan ulduzu"

*Amma yenə də nəsə çatışmırdı sanki... İçindəki, ruhundakı melodiya, avaz dinmək bilmirdi. Musiqidə yenilik etmək coşqusu getdikcə daha da alovlanırdı. Onu öz missiyasına doğru aparırdı. Nəhayət, 1968-ci ildə Gülarə Əliyeva nəinki Azərbaycanda, dünyada bir ilkə imza atır. Klassik və milli alətlərin sintezindən ibarət ansambl yaradır...*



- Bu, o dövr üçün bir inqilab sayılırdı. Həm də cəsarət tələb edirdi. Çünki elə bir sintez heç vaxt olmamışdı. Necə qarşılanacaqdı? Seviləcəkdimi? Gülarə xanım bu yeniliyi etdi. Və çox gözəl qarşılandı, dərhal da sevildi. Xeyli vaxt idi məşqlər gedirdi, amma hələ də ansambla ad qoyulmamışdı. Ad üzərində çox düşündülər, var-gəl etdilər, müxtəlif fikirlər səsləndi.

AzTV-nin ovaxtkı sədri Nəbi Xəzri "Dan ulduzu" adını təklif etdi. Anamın da çox xoşuna gəldi. Beləliklə, ansambl AzTV-nin nəzdində "Dan ulduzu" adı ilə fəaliyyətə başladı. Qeyri-adi ansambl idi. Musiqi səslənən kimi elə ilk notlardan hamı bilirdi ki, bu, "Dan ulduzu"nun ifasıdır. Çünki fərqli, standart ifalardan seçilən səslənmə, musiqi idi. Anamın ürəyindən keçən, ruhundan qopan melodiyalar idi.

*Tezliklə "Dan ulduzu" Azərbaycan musiqisində ulduz kimi parlayır. Ansamblın konsertləri efirləri, tədbirləri bəzəyir. Gülarə Əliyeva ansambla daha çox konservatoriyanın tələbələrini, istedadlı, həvəsli gəncləri seçir. Leyla Şərifova və Yalçın Rzazadə ilk solistlər olur. Sonradan bu ansamblla kimlər çıxış etmədi ki?! Şövkət Ələkbərova, Elmira Rəhimova, Flora Kərimova, Akif İslamzadə, Hüseynağa Hadıyev, Səkinə İsmayılova, Məmmədbağır Bağırzadə, Məhəbbət Kazımov, Aybəniz Haşımova... Ansamblın üzvləri qarşısına isə bir tələb qoyulmuşdu: yalnız peşəkar bəstəkarların mahnıları səslənməlidir...*

- Çalıb-oxumaq bizim evdə adi hal idi. Çünki ansamblın bütün məşqləri evimizdə olurdu. Çox gülməli, şən keçirdi məşqlər. Bir-birlərilə zarafatlaşırdılar. Ciddi iş prosesi kimi deyildi, səmimi ortam, ab-hava olurdu. Anam ansamblın üzvlərini öz övladları, bacı-qardaşları kimi sevirdi. Onları yedirib-içirmədən məşqə başlamazdı. Mən və rəhmətlik bacım Nuridə ansambl üzvlərinin gözü qarşısında böyümüşük. Hərdən biz də



məşqdə oturub onları dinləyərdik. Elə bilirdim musiqi bayramıdır. Xüsusən də zərb alətlərinin səsi çox xoşuma gəlirdi.

Anam çox zarafatcıl biri idi. Həmişə pozitiv əhvalda olmağa çalışırdı. Səhhətində problemlər yaransa da, müəyyən çətinliklər olsa da, bunları heç kimə büruzə verməzdi. Məşqdə kiminsə əhvalının yaxşı olmadığını görən kimi dərhal maraqlanar, kömək edərdi. Pianoda anam özü çalırdı. Hər alət üçün instrumentovka yazır, orkestrovka edirdi. Bu işləri heç kimə etibar etməzdi, mütləq öz əlindən çıxmalı idi. Özü də gecələr, hamı yatanda, sakitlikdə oturub yazmağı sevirdi. İşinə, sənətinə sözün əsl mənasında can qoyurdu. Onunla çalışan musiqiçilər, bəstəkarlar istedadına, musiqiyə olan sevgisinə, həvəsinə heyran idilər. Təəssüf ki, indi belə sənət fədailəri yoxdur.

## "Atam anamın ifasından həzz alırdı"

*Musiqinin, sənətin, ansamblın inkişafı, mədəniyyətin təbliği Gülarə Əliyevanın həyat amalı idi. Necə də olmaya?! Tanrı tərəfindən bu missiya ilə göndərilmişdi yer üzünə... Və öhdəsindən də layiqincə gəlirdi. Amma hər qadının bir müqəddəs missiyası da var bu həyatda - analıq missiyası. Hər qadın üçün ailəsi, uşaqları həyatının ən vacib, ən mühüm hissəsidir. Elə Gülarə xanım üçün də eləydi. Düzdür, mənəvi analığı "Dan ulduzu"nu Azərbaycan musiqi dünyasına gətirdiyi gündən yaşayırdı. Ansambl onun ilk övladı sayılırdı. Üzvlərinin hər birinə ana nəvazişi ilə yanaşır, ana qayğısı göstərirdi. Amma əsl analıq zirvəsi tamam başqa yüksəklik idi...*

*Həyat yoldaşı Adil Adilov kulturoloq idi. İncəsənət İnstitutunda çalışdıqları zaman həmkar kimi tanış olmuşdular. Sonradan bu tanışlıq səmimi münasibətə, ardınca məhəbbətə çevrilir. 1969-cu ildə isə ailə qurmaq qərarına gəlirlər.*



- Ailə qurmaq qərarı verəndə hər ikisi yetkin insan idi. Mən evin böyük qızıyam, 1971-ci ildə dünyaya gəlmişəm. Onda atamın 43, anamın 38 yaşı vardı. Atam kiminlə ailə qurduğunu əlbəttə bilirdi. Anamın istedadına vurğun idi, fəaliyyətinə, sənətinə hörmətlə yanaşırdı, anlayışla qarşılayırdı. Özü də yaradıcı adam idi və musiqini çox sevirdi. Hansısa qonaqlıqda anam piano arxasına keçəndə atam fəxr edirdi, ifasından həzz alırdı. Anam çalışırdı ansamblın məşqlərini atamın iş saatlarına salsın. Amma atam hətta evdə olanda belə öz otağına keçirdi ki, məşqə mane olmasın. Yəni karyera üstündə bizim evdə heç vaxt söz-söhbət olmayıb. Əksinə, atam anamı hər zaman dəstəkləyib. Anam ansamblla birlikdə qastrol səfərlərinə gedəndə də bizə atam, bəzən bibim baxıb. Həm də ki, ailədə narazılığın olması üçün əsas yox idi. Anam heç vaxt karyera naminə ailəni ikinci plana keçirməyib. Ailəsinə, övladlarına çox bağlı idi.

Ev işlərində köməkçisi olsa da, mətbəxi heç kimə etibar etmirdi. Yeməklərin hamısını özü bişirirdi, o qədər də dadlı olurdu ki... Hər zaman yeni reseptlər kəşf edirdi. Bir də anasından öyrəndiyi yeməkləri bişirib, yaşadırdı. Məsələn, İrəvan dolması. Hələ də təəccüblənirəm ki, ansamblla, qastrolla, konsertlərlə, universitetdəki dərsləri ilə ailənin yükünü birlikdə necə çəkə bilirdi. Bütün işlərini də çatdırırdı.

Çox unikal insan və şəxsiyyət idi. Özünü heç vaxt yekəxana aparmazdı, sadə idi. Bu da genetik xüsusiyyət kimi ona keçmişdi. Atasından o cür görübgötürmüşdü. Deyirdi, atam da belə olub. Emosional, şən, eyni zamanda həssas və kövrək qəlbli idi. Adi bir sözdən belə kövrələ bilərdi. Bir də yaman nigaran olurdu. Gündə bir neçə dəfə bacı-qardaşları ilə mütləq danışmalıydı. Qızlarını daim nəzarətdə saxlayırdı...

## "Heydər Əliyevin baldızı olduğu üçün təzyiqlər başlandı..."

*Gülarə xanım iki qızı ilə bərabər ansamblı da böyüdür. "Dan ulduzu"nun parlaqlığı, şöləsi ildən-ilə artır. Artıq nəinki Azərbaycanda, ölkənin hüdudlarından kənarda da tanınmağa, sevilməyə başlayır. Təxminən 20 il ərzində dünyanın dörd bir yanında ansamblın çıxışları olur. "Dan ulduzu" şöhrətinin pik nöqtəsini yaşayır. Amma 1980-ci illərin sonunda birdən-birə ansamblın başının üstünü qara buludlar alır. Düşmən əli onların fəaliyyətinə mane olur, konsertlərini təxirə salır, efirə çıxmağa imkan vermir, qastrol səfərlərindən adlarını çıxarırdı. Bu da təsadüfi deyildi. Çünki 1987-ci ildə yeznələri Heydər Əliyev Sov.İKP MK Siyasi Bürosunun üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən öz ərizəsi ilə istefa vermişdi.*

> Ailədə hamı həkim idi - atası, bacısı Zərifə, qardaşı Tamerlan. Sonradan evin sonbeşiyi Cəmil də bu ailə ənənəsini davam etdirdi. Anam da tibb sahəsində bilgili idi. Ancaq ailədə yeganə adam idi ki, musiqiyə yönəldi. Hamı da bu qərarını anlayışla qarşıladı. Çünki necə istedadlı olduğunu görürdülər. Və o istedadın qarşısına sipər çəkmək sadəcə ədalətsizlik olardı. Əliyevlər ailəsində isə ədalətsizlik əsla ola bilməzdi.

- O vaxtlar artıq böyük qız idim. Baş verənləri dərk edirdim. 80-ci illərin sonlarında ansamblın fəaliyyətində süni maneələr yaradılmağa başlandı. Çəkilişlərə çağırmırdılar, qastrol səfərlərinə aparmırdılar, konsertlərdən adlarını çıxarırdılar. Əvvəldən təyin olunmuş konsertə və ya səfərə bir gün qalmış xəbər gəlirdi ki, "Dan ulduzu"nu siyahıdan çıxarıblar. Müxtəlif problemlər, çətinliklər yaradırdılar. Anam başa düşürdü ki, bu, təsadüfi deyil, bilərəkdən edilir, kimsə daim mane olur. Artıq Heydər Əliyevin Moskvada Qorbaçovla problemləri başlamışdı, SSRİ Nazirlər Sovetindən istefa vermişdi və onun əleyhinə kampaniya başladılmışdı. Məhz Heydər Əliyevin baldızı olduğu üçün anama da ansambl vasitəsilə təzyiqlər göstərirdilər. Gülarə xanım da bu siyasi oyunlara qurban getdiyini başa düşürdü. Anam Heydər Əliyevi çox istəyirdi, hörmət edirdi. Heydər Əliyev də anamı çox istəyir, yaradıcı şəxsiyyət kimi hörmətlə yanaşırdı. Ansamblı da çox bəyənirdi.

Bəzən evdə anam pianoda çalar, Zərifə xalamla Heydər Əliyev də oxuyardılar. Ancaq ailə münasibətlərini işə qatmaq ədalətsizlik idi. Hansısa çirkli siyasi oyunlara görə 20 illik tarixin üzərindən xətt çəkmək istəyirdilər. Bu ədalətsizlik anamı incidirdi, çox narahat olurdu. Sanki havası çatmırdı, boğulurdu. Axı o, bu sənətlə nəfəs alırdı, yaşayırdı. Anam üçün musiqi, ansambl həyat idi.

## "Ansamblın bütün köhnə lent yazılarını silmişdilər"

- Elə o vaxtlar anam böyük stress yaşadı. Baş verənlər sağlamlığına da zərbələr vurdu. Səhhətində ciddi problemlər yarandı. Böyrəyinin biri əməliyyat olundu. Orqanizmində hormonal dəyişikliklər başladı. Artıq çəki aldı. Tez-tez təzyiqi yüksəlirdi. Biz daim ona nəzarət edirdik, yeməyinə fikir verirdik. Həyatı-



nın son illərində əvvəlki kimi şən deyildi, həyat eşqi sönmüşdü sanki, bu, üzündən də görünürdü. Ansambla təzyiq etməklə anamın arzularının, xəyallarının, gələcək planlarının, bəstələrinin da üstündən xətt çəkdilər. Günlərin birində isə məlum oldu ki, AzTV-nin Musiqi redaksiyasında "Dan ulduzu"nun bütün köhnə lent yazıları silinib, 5-6 konsert saxlanılıb. İndi efirdə, internetdə gördüklərimiz salamat qalan lent yazılarıdır. Bu hadisə anam üçün böyük sarsıntı, əsl faciə idi. Qol-qanadı sındı sanki. 23 illik əziyyəti, 23 illik tarix bir qələmlə silinmişdi. O musiqilər anamın yuxusuz gecələriydi, balalarıydı, canıydı, ruhuydu, daxili dünyasının melodiyaları idi... Hər şeyi bir göz qırpımında məhv etmişdilər. Təəssüf ki, bu hadisədən bir az sonra dünyasını dəyişdi. Anamın ölümündən sonra ansamblın lent yazılarını köçürməyə çalışdım. Heç nə tapa bilmədim. Çox acınacaqlı durumdu. Bəlkə də sağ olsaydı, özü bu namərdliyin üstünü aça bilərdi, araşdırardı. Qismət olmadı...

## Vaxtsız susmuş həyat melodiyası...

*...Həmin gün - 1991-ci il iyulun 27-si adi yay günlərindən seçilirdi. Səhər həyəcanla açılmışdı. Evin sonbeşiyi Nuridə konservatoriyaya imtahan verməyə getmişdi. Axşam isə Adil Adilov xəstəxanada müalicə almaq üçün Moskvaya yola düşməliydi. Evdə qəribə bir çaxnaşma, gərginlik vardı. Bir yandan yemək hazırlanırdı, bir yandan yol çamadanı yığılırdı, digər tərəfdə qızlar imtahanın necə keçməsindən danışırdılar. Ansamblın violonçel ifaçısı Minirə Yusifli də onlardaydı, ansambla aid işlərlə məşğul idi.*

*Arada Gülarə xanımın qardaşı Cəmil Əliyev də həyat yoldaşı ilə birlikdə onlara gəldi. Adil Adilovla sağollaşmaq üçün. Amma nə biləydi ki, bu, yeznəsi ilə yox, bacısı və onun 18 yaşlı qızıyla vida imiş...*

- Axşam saat 6 idi. Mən atamı yola salmaq üçün onunla birlikdə aşağı düşdüm. Anam, bacım və Minirə isə atamın ardınca su atmaq üçün eyvana çıxdılar. Biz hələ aşağı çatmamış dəhşətli bir gurultu eşitdik. Evin köhnə eyvanı uçmuşdu. Ağlasığmaz bir hadisə idi. Bir gün əvvəl o eyvanda oturub meyvə yemişdik, söhbət etmişdik... Dəhşətli mənzərə idi. O hisləri, o dəhşəti, o faciəni sözlərlə ifadə etmək mümkün deyil... Anamla Minirə elə həmin anda canlarını tapşırmışdılar. Bacım Nuridə isə 6 gün xəstəxanada qaldı. Başından ağır zərbə almışdı. Möcüzə gözləyirdik. Amma qismət...

*Gülarə Əliyevanın bu dünyadakı missiyası beləcə bir faciə ilə bitdi. Musiqili ömrü son akkordlarını vurdu. Həyat melodiyası vaxtsız susdu. O ürəkdə neçə-neçə musiqilər, bəstələr doğulmamış dəfn olundu...*

- Heç vaxt fikirləşməzdim ki, anam, bacım dünyadan bu qədər tez və qəfil köçərlər. Anamın 57 yaşı vardı. O nə yaşdı ki?! Sağ qalsaydı, daha böyük işlər görə bilərdi. Çünki boş oturmurdu, işləyirdi. Bütün potensialını istifadə etmədi. Vaxtsız ölümü ilə hər şey yarıda qırıldı. Anamla bacımın ölümü atama da, mənə də böyük zərbə, sağalmaz yara vurdu, sarsıntı yaşadıq, depressiyaya düşdük. Çox arıqladım. Yemək yemirdim, Allaha üsyan edirdim, inamım sarsılmışdı. Bu faciəni ilahi ədalətsizlik hesab edirdim. Atam da birdən-birə çox qocaldı. Onu daha heç nə şənləndirə bilmirdi. Xəstəxanaya getməkdən imtina etdi. Ağır sirrozu başladı. Onlardan sonra 2 il yaşadı. O da yalnız mənim üçün, məni tək qoymamaq üçün. Atam çox ciddi, sərt xasiyyətli biri idi. Saat 2-də dərsdən çıxırdısa, biz onda evdə olmalıydıq. Bir baxışı bəs idi. Anamın ölümündən sonra atamın xasiyyəti həlimləşdi, yumşaldı. İstəyirdi başım qarışsın, həyatıma rəng qatsın. Həyat yoldaşımla tanış olub ailə qurandan sonra elə bil ürəyi sakitləşdi. Artıq bu həyatda tək olmadığımı bildi, mən sarıdan arxayınlaşdı. Və həyatla, yaşamla mübarizəsi ikinci plana keçdi. Toyumdan bir neçə ay sonra isə rəhmətə getdi...

## "Anamın adı heç yerdə əbədiləşdirilməyib"

*Gülarə Əliyevanın vaxtsız ölümü "Dan ulduzu"nun sonrakı taleyinə də təsirsiz ötüşmür. Ansambl AzTV-nin ştatından çıxarılır və dağılmaq həddinə çatır. Ancaq müxtəlif çətinliklərə, əziyyətlərə rəğmən "Dan ulduzu" 51 ildir sönməyib, parlamağa davam edir.*



- Keçən ilin noyabrında anamın 85 yaşı, ansamblın yaranmasının isə 50 illiyi oldu. Çox istərdim Gülarə xanımın yubileyi dövlət səviyyəsində qeyd olunsun. Kitabının və diskinin böyük təqdimatı keçirilsin. Adı heç yerdə əbədiləşdirilməyib. Hansısa musiqi obyektinə onun adı verilsin. İstəyirəm adı yaşasın, xatırlansın. Hesab edirəm ki, Gülarə Əliyeva sənətkar və şəxsiyyət kimi buna layiqdir. O, XX əsr Azərbaycan musiqisinə öz izini qoyub, böyük işlər görüb. Şərqdə ilk qadındır ki, ansambl yaradıb və ona rəhbərlik edib. Dünyada klassik və milli alətlərin sintezindən ibarət ilk ansamblın yaradıcısıdır. Onun xidmətlərini unutmaq və danmaq olmaz.

## O ailədə ikinci Gülarə Əziz qızı Əliyeva böyüyür

*... Həyat həqiqətən də qəribə təsadüflərlə doludur. Hər şeyin bitdiyini düşündüyümüz an həyatımızda qəfil günəş doğur. Yaxud əzizimizi itirəndən sonra onu başqasının simasında, gözlərində, baxışlarında, hərəkətlərində axtarıb tapırıq. Onunla ovunuruq. Onunla təsəlli tapırıq. Onu həmin adamın ömründə yenidən yaşadırıq...*

*Ayəndə Əliyevanın da qismət payına belə bir təsadüf düşüb. Bəlkə Yaradanın mütləq zərurətindən doğan təsadüf. Həyat yoldaşının adı Əziz, soyadı Əliyevdir - babasının adaşı. Qızına isə anasının şərəfinə Gülarə adını verib.*

*İndi o ailədə ikinci Gülarə Əziz qızı Əliyeva böyüyür...*

*O da nənəsi kimi yaradıcı ruhludur, musiqini sevir, gitarada ifa edir, gözəl rəsm qabiliyyəti var. "Bəzi xüsusiyyətləri, xarakterik cizgiləri ilə nənəsinin bənzəridir", - deyir Ayəndə xanım.*



*12 ildir anasını qızının adında, gülüşündə, davranışlarında yaşadır. Anasının xatirəsini qızı ilə birlikdə böyüdür. Ətrini ondan alır. Və bircə ümidlə yaşayır - bəlkə o da elə nənəsinin yolunu davam etdirəcək...*

*Bu gün göy üzündə bir ulduz şölə saçır. 12 yaşlı Gülarə Əziz qızı Əliyevanın ulduzu... Kim bilir, bəlkə yaxın gələcəkdə o özü də elə əsl ulduz həyatı yaşayacaq.*

**Xəyalə MURADLI,**
***"Azərbaycan"***

# “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 19; 2001, № 12, maddə 736; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 8, maddə 599, № 10, maddə 787; 2005, № 8, maddə 686; 2006, № 12, maddə 1005; 2007, № 4, maddə 322; 2009, № 7, maddə 517, № 11, maddə 878; 2010, № 5, maddə 375; 2011, № 2, maddə 71, № 6, maddə 478; 2013, № 11, maddə 1272; 2017, № 11, maddə 1977; 2018, № 2, maddə 148, № 11, maddə 2194; Azərbaycan Respublikasının 2018-ci il 27 noyabr tarixli 1343-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 11-ci maddənin III hissəsinin altıncı abzasına “dövriliyini” sözündən sonra “(ildə bir dəfədən az olmayaraq)” sözləri əlavə edilsin.

2. 13-cü maddənin VIII hissəsi aşağıdakı redaksiyada verilsin:

“VIII. İxtisas imtahanının şifahi müsahibə mərhələsini müvəffəqiyyətlə keçə bilməyən şəxs həmin müsahibədən sonra bir il ərzində keçirilən ixtisas imtahanlarında iştirak edə bilməz.”.

3. 24-cü maddənin I hissəsinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Vəkillik fəaliyyətinin bu qanunla müəyyən edilmiş hallarda dayandırıldığı dövrdə üzvlük haqqı ödənilmir.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 mart 2019-cu il*

# “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 5 mart tarixli 1521-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 5 mart tarixli 1521-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 aprel 2019-cu il*

# “Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdü”nün təsis edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 25 fevral tarixli 992 nömrəli Sərəncamının icrası ilə əlaqədar **qərara alıram:**

1. “Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdü” təsis edilsin və onun aylıq məbləği 80 manat müəyyən olunsun.

2. Müəyyən edilsin ki:

2.1. bu fərmanın 1-ci hissəsinə əsasən təsis edilən Azərbaycan Respublikası Prezidentinin təqaüdü:

2.1.1. 2019-cu il aprelin 1-dək kommunal, nəqliyyat və digər xidmətlərə görə sosial müavinət alan şəxslərə həmin sosial müavinətin əvəzinə, əmək pensiyası alan və döyüşən ordunun tərkibində xidmət etmiş müharibə iştirakçılarına (Böyük Vətən müharibəsi iştirakçıları istisna olmaqla), habelə döyüş əməliyyatı aparılan ölkədə hərbi xidmət borcunu yerinə yetirmiş hərbi qulluqçulara əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə verilir;

2.1.2. dövlət büdcəsində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə nəzərdə tutulmuş xərclər hesabına həmin nazirlik tərəfindən ödənilir;

2.2. bu fərmanın 1-ci hissəsinə əsasən təsis edilən Azərbaycan Respublikası Prezidentinin təqaüdünü və müharibə və ya 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərə, 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və “Leninqradın müdafiəsinə görə” medalı, “Leninqrad mühasirəsində yaşayan” döş nişanı ilə təltif edilmiş şəxslərə, ümumi xəstəlik, hərbi xidmət dövründə xəstələnmə, əmək zədəsi və peşə xəstəliyi, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar səbəblərdən I qrup əlilliyi olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünü almaq hüququ olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin qeyd olunan təqaüdlərindən yalnız biri - ən yüksəyi verilir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını bir ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.4. bu fərmandan irəli gələn məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

5. Bu fərmanın 1-ci və 2-ci hissələri 2019-cu il aprelin 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 aprel 2019-cu il*

# “Beşdən çox uşağı olan qadınlara müavinətin məbləğinin müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 27 dekabr tarixli 72 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 25 fevral tarixli 992 nömrəli Sərəncamının icrası ilə əlaqədar **qərara alıram:**

1. “Beşdən çox uşağı olan qadınlara müavinətin məbləğinin müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 27 dekabr tarixli 72 nömrəli Fərmanında (2013, № 12, maddə 1539; 2018, № 4, maddə 668 ) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adında “müavinətin” sözü “sosial müavinətin” sözləri ilə əvəz edilsin;

1.2. 1-ci hissədə “müavinətin” sözü “sosial müavinətin” sözləri ilə, “33 (otuz üç)” sözləri “55 (əlli beş)” sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu fərmandan irəli gələn məsələləri həll etsin.

3. Bu fərman 2019-cu il aprelin 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 aprel 2019-cu il*

# “I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü”nün təsis edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 25 fevral tarixli 992 nömrəli Sərəncamının icrası ilə əlaqədar **qərara alıram:**

1. “I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü” təsis edilsin və onun aylıq məbləği 50 manat müəyyən olunsun.

2. Müəyyən edilsin ki, bu fərmanın 1-ci hissəsi ilə təsis edilən Azərbaycan Respublikası Prezidentinin təqaüdü:

2.1. 2019-cu il aprelin 1-dək I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara münasibətdə “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qulluq üçün əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə verilir;

2.2. təqaüdü almaq hüququ olan şəxslərdən yalnız birinə ödənilir;

2.3. bu məqsədlər üçün dövlət büdcəsində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ayrılmış xərclər hesabına həmin nazirlik tərəfindən bu fərmanın 3.1.2-ci yarımbəndində nəzərə tutulan qaydaya uyğun olaraq ödənilir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. bir ay müddətində:

3.1.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.1.2. bu fərmanın 1-ci hissəsi ilə təsis edilən təqaüdün ödənilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

3.1.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.1.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.1.5. bu fərmandan irəli gələn məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

5. Bu fərmanın 1-ci və 2-ci hissələri 2019-cu il aprelin 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 aprel 2019-cu il*

# “Əlillik ümumi xəstəlik, hərbi xidmət dövründə xəstələnmə, əmək zədəsi və peşə xəstəliyi, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar səbəblərdən baş verdikdə I qrup əlilliyə görə sosial müavinət alanlara Azərbaycan Respublikası Prezidentinin təqaüdü”nün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 17 mart tarixli 128 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 25 fevral tarixli 992 nömrəli Sərəncamının icrası ilə əlaqədar **qərara alıram:**

1. “Əlillik ümumi xəstəlik, hərbi xidmət dövründə xəstələnmə, əmək zədəsi və peşə xəstəliyi, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar səbəblərdən baş verdikdə I qrup əlilliyə görə sosial müavinət alanlara Azərbaycan Respublikası Prezidentinin təqaüdü”nün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 17 mart tarixli 128 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 3, maddə 249; 2016, № 1, maddə 70; 2018, № 4, maddə 668) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adında “Əlillik ümumi xəstəlik, hərbi xidmət dövründə xəstələnmə, əmək zədəsi və peşə xəstəliyi, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar səbəblərdən baş verdikdə I qrup əlilliyə görə sosial müavinət alanlara” sözləri “Ümumi xəstəliklə, hərbi xidmət dövründə xəstələnmə ilə, əmək zədəsi və peşə xəstəliyi ilə, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl AES-də qəzanın ləğvi ilə bağlı səbəblərdən I qrup əlilliyi olan şəxslərə” sözləri ilə əvəz edilsin;

1.2. 1-ci hissə aşağıdakı redaksiyada verilsin:

“1. “Ümumi xəstəliklə, hərbi xidmət dövründə xəstələnmə ilə, əmək zədəsi və peşə xəstəliyi ilə, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl AES-də qəzanın ləğvi ilə bağlı səbəblərdən I qrup əlilliyi olan şəxslərə” Azərbaycan Respublikası Prezidentinin təqaüdü” təsis edilsin və onun aylıq məbləği 100 manat müəyyən olunsun.”

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu fərmandan irəli gələn məsələləri həll etsin.

3. Bu fərman 2019-cu il aprelin 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 aprel 2019-cu il*

# Azərbaycan Respublikası Prezidentinin “Müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında” 2008-ci il 9 sentyabr tarixli 823 nömrəli Fərmanında dəyişiklik edilməsi və “1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlil olmuş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında” 2011-ci il 19 yanvar tarixli 370 nömrəli Fərmanının ləğv edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 25 fevral tarixli 992 nömrəli Sərəncamının icrası ilə əlaqədar **qərara alıram:**

1. “Müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 9 sentyabr tarixli 823 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 9, maddə 795; 2011, № 12, maddə 1140; 2013, № 8, maddə 895; 2014, № 3, maddə 250; 2016, № 1, maddə 68; 2018, № 5, maddə 937) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adında və 1-ci hissəsində “Müharibə əlillərinə” sözləri “Müharibə və ya 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərə” sözləri ilə əvəz edilsin;

1.2. preambulada “yetirərkən” sözündən sonra “, habelə 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar” sözləri əlavə edilsin və “əlil olan” sözləri “əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilsin;

1.3. 1.1-ci - 1.3-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

“1.1. I dərəcə əlilliyi olan şəxslərə - 250 manat;

1.2. II dərəcə əlilliyi olan şəxslərə - 230 manat;

1.3. III dərəcə əlilliyi olan şəxslərə - 210 manat.”;

1.4. 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

“2. Müəyyən edilsin ki:

2.1. bu fərmanın 1-ci hissəsi ilə təsis edilən təqaüdü dövlət büdcəsində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə nəzərdə tutulmuş xərclər hesabına həmin nazirlik ödəyir;

2.2. bu fərmanın 1-ci hissəsi ilə müəyyən edilən Azərbaycan Respublikası Prezidentinin təqaüdlərindən yalnız biri - daha yüksəyi verilir.”.

2. “1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlil olmuş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 19 yanvar tarixli 370 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 1, maddə 17; 2016, № 1, maddə 65; 2018, № 5, maddə 938) ləğv edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu fərmandan irəli gələn məsələləri həll etsin.

4. Bu fərman 2019-cu il aprelin 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 aprel 2019-cu il*

# Akademik Məmməd Cəfər Cəfərovun 110 illiyinin qeyd edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2019-cu ilin may ayında görkəmli ədəbiyyatşünas və tənqidçi, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü, Azərbaycanın Dövlət mükafatı laureatı, əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Məmməd Cəfər Zeynalabdin oğlu Cəfərovun anadan olmasının 110 illiyi tamam olur.

Akademik Məmməd Cəfər Cəfərov ömrünün 60 ilə yaxın bir dövrünü ölkədə ədəbi-nəzəri fikrin inkişafına həsr etmiş, ədəbiyyatın tarixi və nəzəriyyəsi, ədəbi əlaqələr və eləcə də estetikanın aktual məsələlərinə dair fundamental araşdırmaları ilə Azərbaycan ədəbiyyatşünaslığını əhəmiyyətli dərəcədə zənginləşdirmişdir. Onun geniş əhatəli elmi irsində Nizami Gəncəvi, Məhəmməd Füzuli, Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Hüseyn Cavid və Səməd Vurğun kimi qüdrətli söz ustalarının yaradıcılıqlarının fəlsəfi-estetik mahiyyətini dünya ədəbi təcrübəsi ilə vəhdətdə dolğun şərh edən, yüksək elmi-nəzəri ümumiləşdirmə gücünə malik əsərləri xüsusi yer tutur. Azərbaycan ədəbiyyatında romantizm cərəyanının təşəkkülü və inkişafının ilk müfəssəl tədqiqi Məmməd Cəfər Cəfərovun adı ilə bağlıdır. Pedaqoji sahədə uzun müddət uğurla çalışan və qiymətli dərsliklər müəllifi olan alim, həmçinin elmi kadrların hazırlanması istiqamətində təqdirəlayiq fəaliyyət göstərmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan ədəbiyyatşünaslığına yeni yaradıcılıq keyfiyyətləri qazandırmış görkəmli alim Məmməd Cəfər Cəfərovun anadan olmasının 110-cu ildönümünün qeyd olunmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə akademik Məmməd Cəfər Cəfərovun 110 illiyinə dair tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 aprel 2019-cu il*

# Bakı şəhərinin Suraxanı rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhərinin Suraxanı rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 3,0 (üç) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 aprel 2019-cu il*

# “1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və “Leninqradın müdafiəsinə görə” medalı, “Leninqrad mühasirəsində yaşayan” döş nişanı ilə təltif edilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 2 iyul tarixli 2320 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 25 fevral tarixli 992 nömrəli Sərəncamının icrası ilə əlaqədar **qərara alıram:**

1. “1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və “Leninqradın müdafiəsinə görə” medalı, “Leninqrad mühasirəsində yaşayan” döş nişanı ilə təltif edilmiş şəxslərə (müharibə əlilləri istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 2 iyul tarixli 2320 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 7, maddə 708; 2013, № 12, maddə 1601; 2014, № 4, maddə 437; 2016, № 1, maddə 133; 2018, № 4, maddə 747) 1-ci hissəsində “121 (yüz iyirmi bir)” sözləri “150 (yüz əlli)” sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Bu sərəncam 2019-cu il aprelin 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 aprel 2019-cu il*

# Azərbaycan Respublikasının Dövlət Gerbindən istifadə qaydaları haqqında

## Azərbaycan Respublikasının Qanunu

Bu qanun Azərbaycan Respublikası Konstitusiyasının 23-cü maddəsinə və "Azərbaycan Respublikası Dövlət Gerbinin təsvirinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğun olaraq, Azərbaycan Respublikasının Dövlət Gerbindən istifadə qaydalarını müəyyən edir.

**Maddə 1. Azərbaycan Respublikasının Dövlət Gerbi**

1.1. Azərbaycan Respublikası Konstitusiyasının 23-cü maddəsinin I hissəsinə əsasən, Azərbaycan Respublikasının Dövlət Gerbi Azərbaycan Respublikasının dövlət rəmzidir.

1.2. Azərbaycan Respublikasının Dövlət Gerbinin təsviri "Azərbaycan Respublikası Dövlət Gerbinin təsvirinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu ilə müəyyən edilir.

**Maddə 2. Azərbaycan Respublikasının Dövlət Gerbinə hörmət**

2.1. Azərbaycan Respublikası Konstitusiyasının 75-ci maddəsinə əsasən, hər bir vətəndaş Azərbaycan Respublikasının Dövlət Gerbinə hörmət etməlidir. Azərbaycan Respublikasının Dövlət Gerbinə hörmətsizliyin nümayiş etdirilməsi qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur.

2.2. Azərbaycan Respublikası Konstitusiyasının 69-cu maddəsinə əsasən, Azərbaycan Respublikasının vətəndaşları ilə yanaşı əcnəbilər və vətəndaşlığı olmayan şəxslər də bu qanunun 2.1-ci maddəsində göstərilən vəzifəni daşıyırlar.

**Maddə 3. Azərbaycan Respublikasının Dövlət Gerbi haqqında qanunvericilik**

Azərbaycan Respublikasının Dövlət Gerbi haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, "Azərbaycan Respublikası Dövlət Gerbinin təsvirinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunundan, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, bu qanundan və bu qanuna uyğun qəbul olunmuş digər normativ hüquqi aktlardan ibarətdir.

**Maddə 4. Azərbaycan Respublikasının Dövlət Gerbi ilə bağlı dövlətin vəzifələri**

4.0. Azərbaycan Respublikasının Dövlət Gerbi ilə bağlı dövlətin vəzifələri aşağıdakılardır:

4.0.1. Azərbaycan Respublikasının Dövlət Gerbinin mahiyyətini və əhəmiyyətini əhali arasında geniş təbliğ etmək və onları bu barədə maarifləndirmək;

4.0.2. gəncləri və təhsilalanları Azərbaycan Respublikasının Dövlət Gerbinə hörmət ruhunda tərbiyələndirmək;

4.0.3. Azərbaycan Respublikasının hüdudlarından kənarda Azərbaycan Respublikasının Dövlət Gerbi barədə təhqiredici hərəkətlərin qarşısının alınması üçün beynəlxalq hüquq normalarına və Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə uyğun tədbirlər görmək;

4.0.4. bu qanuna riayət olunmasına nəzarəti təmin etmək.

**Maddə 5. Azərbaycan Respublikasının Dövlət Gerbinə müəlliflik hüququ**

5.1. "Müəllif hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, dövlət rəmzləri müəlliflik hüququnun obyekti deyildir.

5.2. Azərbaycan dövləti Azərbaycan Respublikasının Dövlət Gerbini qeyri-qanuni istifadədən və ona zərər vuran digər hərəkətlərdən qoruyur.

**Maddə 6. Azərbaycan Respublikasının Dövlət Gerbinin qabarıq təsvirinin vurulduğu yerlər**

6.1. Azərbaycan Respublikasının Dövlət Gerbinin qabarıq təsviri aşağıdakı yerlərə vurulur:

6.1.1. Azərbaycan Respublikasının Prezident sarayına, dövlət iqamətgahlarının binalarına, Azərbaycan Respublikası Prezidentinin xidməti otağına;

6.1.2. Azərbaycan Respublikası Milli Məclisinin binasına və iclas salonuna, Azərbaycan Respublikası Milli Məclisinin Sədrinin xidməti otağına;

6.1.3. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin binasına və iclas salonuna, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinin xidməti otağına;

6.1.4. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanların (qurumların) binalarına;

6.1.5. Azərbaycan Respublikasının bütün məhkəmələrinin binalarına və məhkəmə iclaslarının salonlarına, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi sədrinin və Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin xidməti otağına;

6.1.6. Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinin və konsulluqlarının binalarına.

6.2. Azərbaycan Respublikasının Dövlət Gerbinin qabarıq təsvirinin istehsalı və vurulması qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 7. Azərbaycan Respublikasının Dövlət Gerbinin təsvirindən istifadə**

7.1. Azərbaycan Respublikasının Dövlət Gerbinin təsvirindən hüquqi aktların və dövlətin adından verilən sənədlərin blanklarında, Azərbaycan Respublikasının kağız və metal pul nişanlarında, qiymətli kağızlarında, Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsində və pasportunda, dövlət orqanlarının (dövlətin adından hakimiyyət səlahiyyətlərini həyata keçirən qurumların) sənəd blanklarında və möhürlərində, dövlət orqanlarının binalarının lövhələrində, dövlət təltiflərinin təsvirində, Azərbaycan Respublikası Milli Məclisinin və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəsmi nəşrlərində və Azərbaycan Respublikasının sərhəd nişanlarında istifadə olunur.

7.2. Azərbaycan Respublikasının Dövlət Gerbinin təsvirindən istifadənin digər hallarını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edir.

7.3. Azərbaycan Respublikasının Dövlət Gerbinin təsviri olan möhürlərin və sənəd blanklarının hazırlanması, istifadə olunması, saxlanılması və məhv edilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

7.4. Azərbaycan Respublikasının Dövlət Gerbinin təsvirinin dövlət orqanlarının binalarının lövhələrində və sərhəd nişanlarında istifadə olunması qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

7.5. Azərbaycan Respublikasının Dövlət Gerbinə ehtiram bəsləyən hər bir şəxs Azərbaycan Respublikasının Dövlət Gerbinin təsvirindən bu qanunun tələblərinə uyğun istifadə edə bilər.

7.6. Azərbaycan Respublikasının bütün təhsil müəssisələrində yeni dərs ilinin birinci dərsi Azərbaycan Respublikasının digər dövlət rəmzləri ilə yanaşı Azərbaycan Respublikasının Dövlət Gerbinin öyrənilməsinə həsr edilir.

**Maddə 8. Azərbaycan Respublikasının Dövlət Gerbindən istifadəyə dair məhdudiyyətlər**

8.1. Azərbaycan Respublikasının Dövlət Gerbi oturulan və ayaq basılan yerlərdə təsvir edilə bilməz.

8.2. Azərbaycan Respublikasının Dövlət Gerbinin təhrifinə yol verilmir.

**Maddə 9. Bu qanunun pozulmasına görə məsuliyyət**

Bu qanunun tələblərini pozan şəxslər Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə və Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə uyğun olaraq məsuliyyət daşıyırlar.

**Maddə 10. Yekun müddəa**

Bu qanun qüvvəyə mindiyi gündən "Azərbaycan Respublikasının Dövlət Gerbi haqqında Əsasnamənin təsdiq edilməsi barəsində" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1993, № 4, maddə 117; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 8, maddə 463; 2005, № 2, maddə 61; 2006, № 3, maddə 225; 2010, № 4, maddə 276; 2013, № 5, maddə 463) 1-ci maddəsi ləğv edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 fevral 2019-cu il*

# Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında

## Azərbaycan Respublikasının Qanunu

Bu qanun Azərbaycan Respublikası Konstitusiyasının 23-cü maddəsinə və "Azərbaycan Respublikası Dövlət Himninin musiqisinin və mətninin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğun olaraq, Azərbaycan Respublikasının Dövlət Himninin ifa edilməsi, oxunması, dinlənilməsi və Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydalarını müəyyən edir.

**Maddə 1. Azərbaycan Respublikasının Dövlət Himni**

1.1. Azərbaycan Respublikası Konstitusiyasının 23-cü maddəsinin I hissəsinə əsasən, Azərbaycan Respublikasının Dövlət Himni Azərbaycan Respublikasının dövlət rəmzidir.

1.2. Azərbaycan Respublikasının Dövlət Himninin musiqisi və mətni "Azərbaycan Respublikası Dövlət Himninin musiqisinin və mətninin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu ilə müəyyən edilir.

**Maddə 2. Azərbaycan Respublikasının Dövlət Himninə hörmət**

2.1. Azərbaycan Respublikası Konstitusiyasının 75-ci maddəsinə əsasən, hər bir vətəndaş Azərbaycan Respublikasının Dövlət Himninə hörmət etməlidir. Azərbaycan Respublikasının Dövlət Himninə hörmətsizliyin nümayiş etdirilməsi qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur.

2.2. Azərbaycan Respublikası Konstitusiyasının 69-cu maddəsinə əsasən, Azərbaycan Respublikasının vətəndaşları ilə yanaşı əcnəbilər və vətəndaşlığı olmayan şəxslər də bu qanunun 2.1-ci maddəsində göstərilən vəzifəni daşıyırlar.

**Maddə 3. Azərbaycan Respublikasının Dövlət Himni haqqında qanunvericilik**

Azərbaycan Respublikasının Dövlət Himni haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, "Azərbaycan Respublikası Dövlət Himninin musiqisinin və mətninin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunundan, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, bu qanundan və bu qanuna uyğun qəbul edilmiş digər normativ hüquqi aktlardan ibarətdir.

**Maddə 4. Azərbaycan Respublikasının Dövlət Himni ilə bağlı dövlətin vəzifələri**

4.0. Azərbaycan Respublikasının Dövlət Himni ilə bağlı dövlətin vəzifələri aşağıdakılardır:

4.0.1. Azərbaycan Respublikasının Dövlət Himninin mahiyyətini və əhəmiyyətini əhali arasında geniş təbliğ etmək və onları bu barədə maarifləndirmək;

4.0.2. gəncləri və təhsilalanları Azərbaycan Respublikasının Dövlət Himninə hörmət ruhunda tərbiyələndirmək;

4.0.3. Azərbaycan Respublikasının hüdudlarından kənarda Azərbaycan Respublikasının Dövlət Himninə qarşı hörmətsizliyin nümayiş etdirilməsinin qarşısının alınması üçün beynəlxalq hüquq normalarına və Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə uyğun tədbirlər görmək;

4.0.4. bu qanuna riayət olunmasına nəzarəti təmin etmək.

**Maddə 5. Azərbaycan Respublikasının Dövlət Himninə müəlliflik hüququ**

5.1. "Müəllif hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, dövlət rəmzləri müəlliflik hüququnun obyekti deyildir.

5.2. Azərbaycan dövləti Azərbaycan Respublikasının Dövlət Himnini qeyri-qanuni istifadədən və ona zərər vuran digər hərəkətlərdən qoruyur.

**Maddə 6. Azərbaycan Respublikasının Dövlət Himninin mütləq ifa edildiyi hallar və həmin hallarda ifa edilməsinə, oxunmasına və dinlənilməsinə dair tələblər**

6.1. Azərbaycan Respublikasının Dövlət Himni aşağıdakı hallarda mütləq ifa edilir:

6.1.1. Azərbaycan Respublikasının Prezidenti seçilmiş şəxsin andiçmə mərasimində (and içdikdən sonra);

6.1.2. Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası Milli Məclisinin iclaslarına gəldiyi zaman;

6.1.3. Azərbaycan Respublikası Milli Məclisinin növbəti və növbədənkənar sessiyalarının başlanması və qurtarması zamanı;

6.1.4. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbəti və növbədənkənar sessiyalarının başlanması və qurtarması zamanı;

6.1.5. Azərbaycan Respublikasının bayramlarına həsr olunmuş təntənəli yığıncaqların və iclasların açılışı və bağlanışı zamanı;

6.1.6. Azərbaycan dövləti və xalqı üçün mühüm tarixi hadisələr olduqda;

6.1.7. Azərbaycanın görkəmli dövlət, siyasi, ictimai, elm, ədəbiyyat, incəsənət xadimlərinin və Azərbaycanın Milli Qəhrəmanlarının abidələrinin və ya xatirə lövhələrinin açılışı zamanı;

6.1.8. dövlət orqanları (qurumları), yerli özünüidarə orqanları, siyasi partiyalar və ya qeyri-hökumət təşkilatları tərəfindən keçirilən mərasimlər və digər təntənəli tədbirlər zamanı (Azərbaycan Respublikasının Dövlət Bayrağı qaldırılarkən və ya asılarkən);

6.1.9. Azərbaycan Respublikasına rəsmi görüşə gələn xarici ölkələrin dövlət və hökumət başçılarının qarşılanması və yola salınması zamanı (müvafiq ölkənin Dövlət Himni ifa edildikdən sonra).

6.2. Azərbaycan Respublikasının Dövlət Himni musiqisinə (partiturasına) uyğun orkestr, xor və ya orkestr-xor tərəfindən, yaxud başqa vokal üsulla və ya alətlər vasitəsilə, həmçinin səsyazma vasitəsindən istifadə etməklə bütün hallarda tam ifa edilir.

6.3. Azərbaycan Respublikasının Dövlət Himni ifa edildikdə Azərbaycan Respublikasının vətəndaşları Azərbaycan Respublikasının Dövlət Himnini ayaq üstə, farağat vəziyyətdə sona qədər dinləməli və ya mətninə uyğun olaraq oxumalıdırlar.

6.4. Azərbaycan Respublikasının Dövlət Himni ifa edildikdə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının Dövlət Himnini ayaq üstə, farağat vəziyyətdə sona qədər dinləməlidirlər.

**Maddə 7. Azərbaycan Respublikasının Dövlət Himnindən istifadənin digər halları və qaydaları**

7.1. Azərbaycan Respublikasının Dövlət Himninin hərbi qulluqçular tərəfindən ifa edilməsi, ifa edilən zaman əsgəri salam verilməsi, dinlənilməsi və oxunması qaydaları bu qanunun tələbləri əsas götürülməklə Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi" ilə, xüsusi rütbəli şəxslərə münasibətdə isə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanlar (qurumlar) tərəfindən müəyyən edilir.

7.2. Dəfn mərasiminin təşkili və keçirilməsi zamanı hərbi ehtiramın göstərilməsi nəzərdə tutulmuş şəxslərin dəfn mərasimində Azərbaycan Respublikasının Dövlət Himninin ifa edilməsi qaydası bu qanunun tələbləri əsas götürülməklə Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi" ilə tənzimlənir.

7.3. Xarici dövlətin ərazisində Azərbaycan Respublikasının keçirdiyi təntənəli tədbirlər zamanı Azərbaycan Respublikasının Dövlət Himninin ifa edilməsi qaydası bu qanunun tələbləri əsas götürülməklə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

7.4. İdman yarışları zamanı Azərbaycan Respublikasının Dövlət Himninin ifa edilməsi qaydası bu qanunun tələbləri əsas götürülməklə həmin yarışları təşkil edən idman təşkilatı tərəfindən müəyyən edilir.

7.5. Azərbaycan Respublikasının Dövlət Himni hər səhər Azərbaycan Respublikasının televiziya və radio yayımlarının əvvəlində bu qanunun 6.2-ci maddəsində müəyyən edilmiş qaydada ifa edilir.

7.6. Azərbaycan Respublikasının Dövlət Himninin mətni və musiqisi (partiturası) Əlifba kitabının birinci səhifəsində dərc edilir.

7.7. Azərbaycan Respublikasının bütün təhsil müəssisələrində yeni dərs ilinin birinci dərsi Azərbaycan Respublikasının digər dövlət rəmzləri ilə yanaşı Azərbaycan Respublikasının Dövlət Himninin öyrənilməsinə həsr edilir.

**Maddə 8. Azərbaycan Respublikasının Dövlət Himnindən istifadəyə dair məhdudiyyətlər**

8.1. Azərbaycan Respublikasının Dövlət Himni başqa dildə oxuna bilməz.

8.2. Azərbaycan Respublikasının Dövlət Himninin təhrifinə yol verilmir.

**Maddə 9. Bu qanunun pozulmasına görə məsuliyyət**

Bu qanunun tələblərini pozan şəxslər Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə və Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə uyğun olaraq məsuliyyət daşıyırlar.

**Maddə 10. Yekun müddəa**

Bu qanun qüvvəyə mindiyi gündən "Azərbaycan Respublikasının Dövlət Himni haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1993, № 11, maddə 328; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 6, maddə 380; 2004, № 4, maddə 199; 2017, № 5, maddə 687) 1-ci maddəsi ləğv edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 fevral 2019-cu il*

# "Azərbaycan Respublikasının Dövlət Gerbindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1511-VQ nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Dövlət Gerbindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1511-VQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. beş ay müddətində:

1.1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Dövlət Gerbindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.3. "Azərbaycan Respublikasının Dövlət Gerbindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun 6.2-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikası Dövlət Gerbinin qabarıq təsvirinin istehsalı və vurulması qaydasını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.4. həmin qanunun 7.2-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikası Dövlət Gerbinin təsvirindən istifadənin digər hallarına dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.5. həmin qanunun 7.4-cü maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Dövlət Gerbinin təsvirindən dövlət orqanlarının binalarının lövhələrində və sərhəd nişanlarında istifadə olunması qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.1.6. həmin qanunun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. "Azərbaycan Respublikasının Dövlət Gerbindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun 6.1.4-cü və 7.1-ci maddələrində nəzərdə tutulmuş orqanların səlahiyyətlərini həyata keçirəcək icra hakimiyyəti orqanları barədə təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə altı ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. "Azərbaycan Respublikasının Dövlət Gerbindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun 6.1.4-cü, 6.2-ci, 7.1-ci, 7.2-ci, 7.3-cü və 7.4-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin qanunun 7.2-ci maddəsində "orqan" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

2.3. həmin qanunun 6.2-ci, 7.3-cü və 7.4-cü maddələrində "orqan" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Dövlət Gerbindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 aprel 2019-cu il*

# "Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1512-VQ nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1512-VQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. beş ay müddətində:

1.1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.3. həmin qanunun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. "Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun 7.1-ci və 7.3-cü maddələrində nəzərdə tutulmuş orqanın səlahiyyətlərini həyata keçirəcək icra hakimiyyəti orqanları barədə təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə altı ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki, "Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun 7.1-ci və 7.3-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 aprel 2019-cu il*

# Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə"nin və "e-sosial" internet portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində elektron xidmətlərin tətbiqinin genişləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 sentyabr tarixli 258 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

2. "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "e-sosial" internet portalı haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.4. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 aprel 2019-cu il*

Fərmana edilmiş əlavə ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.

# Narkotiklərlə Mübarizə üzrə Beynəlxalq Bakı Konfransı qabaqcıl təcrübənin öyrənilməsi baxımından mühüm platformadır





Bakıda keçirilən Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfransda (IDEC) 115 ölkədən 432 nümayəndə iştirak edir. Tədbirə Azərbaycan tərəfindən 100-dən çox nümayəndə qatılıb. Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində mötəbər platforma olan bu konfransda dünya təcrübəsini bölüşmək, informasiya mübadiləsi aparmaq, bu mübarizədə istifadə olunan qabaqcıl texnologiyalarla tanışlıq imkanı yaradılır.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikası Baş nazirinin müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri **Əli Həsənov** aprelin 15-də Bakıda işə başlayan Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfrans çərçivəsində təşkil olunan mətbuat konfransında deyib.

Baş nazirin müavini vurğulayıb ki, ötən il ABŞ Ədliyyə Departamentinin Narkotiklərlə Mübarizə Administrasiyası beynəlxalq konfransın ölkəmizdə keçirilməsi ilə əlaqədar Azərbaycana müraciət edib. Bu məsələ ilə əlaqədar Prezident İlham Əliyevə müraciət olundu. Belə tədbirlərin Azərbaycanda keçirilməsini daim diqqət mərkəzində saxlayan dövlət başçısı bu konfransın ölkəmizdə təşkili ilə bağlı göstəriş verdi və Prezidentin sərəncamı ilə Təşkilat Komitəsi yaradıldı. Bundan sonra Nazirlər Kabinetinin qərarı ilə tədbirə hazırlıqla əlaqədar işçi qrupu yaradıldı.

Konfransın təşkilinə müxtəlif dövlət qurumları ilə yanaşı, könüllülərin də cəlb olunduğunu diqqətə çatdıran Baş nazirin müavini Bakı konfransı çərçivəsində gənclərlə görüşlərin, eləcə də digər tədbirlərin keçiriləcəyini diqqətə çatdırıb.

Narkotiklərlə Mübarizə Assosiasiyasının rəhbərinin səlahiyyətlərini icra edən **Uttam Dillon** bildirib ki, bu gün narkotik vasitələrin qanunsuz dövriyyəsi cəmiyyəti narahat edən əsas problemlərdən biridir. Dünyada bu dövriyyəni həyata keçirən mütəşəkkil cinayətkar qruplara qarşı qəti mübarizə aparılır. Təmsil etdiyim Narkotiklərlə Mübarizə Assosiasiyası bu işə mühüm töhfə verir. Bu sahədə uğur qazanmaq üçün bütün ölkələrin birgə əməkdaşlığı mühüm əhəmiyyət daşıyır. Bakıda keçirilən Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfransın (IDEC) da bu baxımdan əhəmiyyəti böyükdür.

Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfransın yüksək səviyyədə təşkilinə görə Azərbaycan hökumətinə minnətdarlığını bildirən U.Dillon ölkə ərazisinə narkotik vasitələrin əsasən cənub istiqamətindən daxil olması ilə bağlı suala cavabında deyib: "Bu məsələ də Bakı konfransının qarşısında duran əsas mövzulardan biridir. Konfransın məqsədi mütəşəkkil cinayətkarlığa qarşı mübarizənin daha da gücləndirilməsi, bu mübarizənin yolları və üsullarını müxtəlif ölkələrin nümayəndələri ilə birlikdə müzakirə etməkdir. Bütün bu məsələlər konfrans çərçivəsində təşkil olunacaq regional sessiyalarda müzakirəyə çıxarılacaq".

Qonaq qeyd edib ki, Narkotiklərlə Mübarizə Assosiasiyası narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsindən əziyyət çəkən ölkələrə və bölgələrə yardım göstərməyə çalışır. Bu məqsədlə kiçik regional koalisiyaların yaradılması ilə birgə tədbirlərin görülməsi və fəaliyyətin əlaqələndirilməsi böyük səmərə verir. Çünki narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı səmərəli mübarizə yalnız birgə əməkdaşlıq şəraitində həyata keçirilə bilər.

Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı nəticəsində respublikamızda gömrük sistemi qabaqcıl ölkələrdə tətbiq olunan avadanlıqla təchiz edilib. Azərbaycan dünyada yeganə dövlətlərdən biridir ki, bütün sərhəd-keçid məntəqələrində gömrük sistemində xüsusi rentgen qurğuları və modern avadanlıq quraşdırılıb. Amma buna baxmayaraq, narkotik vasitələrin tranzit keçirilməsi və idxalı hər zaman gözlənilən risk kimi ölkədən və marşrutdan asılı olmayaraq diqqətlə nəzarətdən keçirilir. Azərbaycan dövləti və Prezident İlham Əliyev bu sahəyə xüsusi diqqət göstərir.

Səfər Mehdiyev qeyd edib ki, hökumətin bütün qurumları ilə yanaşı, gömrük sərhəd-keçid məntəqələri tam müasir avadanlıqla təchiz olunur. Biz bu layihələri Narkotiklərlə Mübarizə Assosiasiyasının və ABŞ-ın dəstəyi ilə həyata keçiririk. Dövlət başçısının bu sahəyə diqqət və qayğısının nəticəsində ən müasir rentgen qurğuları və avadanlığı ölkəmizə gətirilərək sərhəd-keçid məntəqələrində quraşdırılır. Eyni zamanda, potensialın gücləndirilməsi, komitənin Kinoloji Mərkəzinə Dünya Gömrük Təşkilatının Regional Mərkəzi statusunun verilməsi və s. tədbirlər uğurlu bəhrəsini verir. Təsadüfi deyil ki, il ərzində aşkarlanan 1,7-1,8 ton narkotik vasitənin, demək olar ki, yarısı sırf bizim təlim keçmiş xüsusi təyinatlı itlərimiz tərəfindən müəyyənləşdirilib.

Xatırladaq ki, aprelin 17-dək davam edəcək Bakı konfransında narkotiklərlə mübarizə üzrə müzakirələr aparılacaq, Azərbaycan paytaxtından dünyaya yeni mesajlar veriləcək.

# Naxçıvanda müşavirə keçirilib






Aprelin 15-də "Naxçıvan Muxtar Respublikasında ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinin vəziyyəti və innovasiyaların dəstəklənməsi barədə" müşavirə keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirəni açaraq deyib: "Ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında innovasiyalar uğurla tətbiq olunur. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, muxtar respublikanın bütün ərazisi fiber-optik xətlə, stasionar və mobil rabitə xidməti, eləcə də sürətli internetlə təmin edilmişdir. Bu gün muxtar respublikanın ən ucqar kəndində yaşayan insanlar da dünyada və ölkəmizdə gedən prosesləri izləyir, fikir və münasibətlərini bildirirlər. Təhsil müəssisələrinin yeni texnologiyalar və internetlə təminatı isə gənclərin hazırlıq səviyyəsini və innovasiyalara çıxış imkanlarını xeyli yüksəltmişdir. Ötən illərdə muxtar respublikada innovasiyaların tətbiqi sahəsində yaradılan şərait imkan verir ki, gənclərin ideyaları dəstəklənsin və startap layihələri uğurla həyata keçirilsin. Muxtar respublikada ailə təsərrüfatlarının inkişafı, Ağbulaq Kənd Turizm İstirahət Bölgəsinin yaradılması, müxtəlif festivalların keçirilməsi və digər tədbirlər uğurlu startap layihələrindəndir".

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Surə Seyid çıxış edərək deyib ki, muxtar respublikada innovativ inkişafa dayanan təhsil siyasəti həyata keçirilir. Təhsilin inkişafına dair yeni fərman və sərəncamlar imzalanır, maddi-texniki bazanın möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamı elmin nəzəriyyə və təcrübə ilə inteqrasiyasına, təhsilə fərqli yanaşma mexanizminin formalaşmasına, qarşılıqlı və çoxşaxəli fəaliyyət planlarının hazırlanmasına və ən əsası, dövlət kadr siyasətinin inkişafına səbəb olub.

Surə Seyid muxtar respublikanın mədəniyyət, gənclərlə iş, səhiyyə, sosial siyasət, iqtisadi inkişaf, ekologiya, yeni texnologiyalar, memarlıq və mühəndislik, nəqliyyat, beynəlxalq əlaqələr, kütləvi informasiya vasitələri və ordu quruculuğu sahələrində hamiliklə bağlı görülən işlərdən geniş bəhs edib.

Naxçıvan Muxtar Respublikasının rabitə və yeni texnologiyalar naziri Rövşən Məmmədov deyib ki, muxtar respublikada əhalinin bütün təbəqələri müasir rəqəmsal xidmətlərdən istifadə imkanı əldə ediblər. Hazırda muxtar respublikanın telekommunikasiya əlaqələrini təmin edən 1600 kilometrdən artıq optik kabel xətləri mövcuddur. Fiber optik kabel xətləri üzərində qurulan iritutumlu telekommunikasiya şəbəkələri elektron xidmətlərin inkişaf etdirilməsinə, o cümlədən elektron hökumət, bank, maliyyə, vergi, təhsil, səhiyyə və digər sahələr üzrə elektron xidmətlərin inkişafına təkan verib. Naxçıvanın beynəlxalq transavrasiya fiber optik magistrallarına 2, qlobal internet sisteminə 4 tərəfli çıxışı vardır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 15 iyul tarixli fərmanına əsasən "Elektron hökumət" portalı yaradılıb. "Bir pəncərə" prinsipi əsasında fəaliyyət göstərən 33 dövlət təşkilatı tərəfindən hazırda 291 elektron xidmət istifadəçilərə təqdim olunur.

Müşavirədə Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev, Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Nicat Babayev və Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri İsmayıl Hacıyev aidiyyəti üzrə məlumat veriblər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirədə çıxış edərək deyib: "Naxçıvan Muxtar Respublikasında son illərdə təhsilin davamlı inkişafını təmin edən sərəncamların qəbul edilməsi, güclü təhsil infrastrukturunun, maddi-texniki bazanın yaradılması, yüksəkixtisaslı kadr hazırlığını təmin edən dövlət proqramlarının, layihələrin uğurlu tətbiqi təhsilin beynəlxalq standartlar səviyyəsinə uyğunlaşmasına təkan verir. "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli Sərəncamı ilə 3 ali, 3 orta ixtisas təhsili müəssisəsini əhatə edən 98 ixtisas və 1 lisey 31 təşkilata hamiliyə verilmişdir. Bu sərəncamla hami təşkilatlar və təhsil müəssisələri arasında əlaqə genişlənmiş, qarşılıqlı əməkdaşlıq insan kapitalının inkişafına, iqtisadi cəhətdən dayanıqlı əmək bazarının yaradılmasına, təhsilverənlə işəgötürən arasında tələblərin formalaşmasına xidmət etmişdir".

Ali Məclisin Sədri deyib: "Bu gün Naxçıvan Dövlət Universitetində 60 ixtisas üzrə bakalavr, 42 ixtisas üzrə magistr, 15 ixtisas üzrə rezident, 11 ixtisas üzrə əlavə təhsil, Naxçıvan Müəllimlər İnstitutunda 8 ixtisas üzrə bakalavr, 3 ixtisas üzrə magistr, "Naxçıvan" Universitetində 15 ixtisas üzrə bakalavr, 6 ixtisas üzrə magistr, Naxçıvan Tibb Kollecində 8, Naxçıvan Dövlət Texniki Kollecində 8, Naxçıvan Musiqi Kollecində 10, peşə liseyi və məktəblərində isə ümumilikdə 22 ixtisas üzrə kadr hazırlanır. Kadr hazırlığı aparılan ixtisaslar muxtar respublikanın tələbatına tam uyğunlaşdırılmışdır. Hər il muxtar respublikada ali və orta ixtisas təhsili müəssisələrini 2200-dən artıq məzun bitirir. Peşə liseyi və məktəblərində isə hər il 3 mindən çox gənc müxtəlif peşələrə yiyələnir. Daim yeniləşən və təhsilin inkişafını tələb edən informasiyalı cəmiyyət kadr hazırlığı işinin yeni müstəvidə hazırlanmasını tələb edir. Ali Məclis Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamı kadr hazırlığına müasir yanaşma və vətəndaşın cəmiyyətə hərtərəfli inteqrasiyasını təmin edir. Yeni sərəncamla 3 ali və 3 orta ixtisas təhsili müəssisəsini əhatə edən 109 ixtisas və 1 lisey müvafiq 36 təşkilata hamiliyə verilmişdir. Əlavə olaraq "İdeyadan başlanğıca" devizi ilə hami təşkilatlarla hamiliyə verilən təhsil müəssisələri arasında innovasiyaya və dayanıqlı inkişafa əsaslanan yaradıcı düşüncəni və elmi-texniki tərəqqini əks etdirən yeni layihələrin - startapların həyata keçirilməsi nəzərdə tutulub".

Ali Məclisin Sədri aid təşkilatlara tapşırıqlar verərək deyib: Müasir dövrdə təhsil cəmiyyətin inkişafını təmin edən aparıcı istiqamət kimi davamlı olaraq yeniləşmə, ən son texnologiyalardan istifadə yolu ilə mütərəqqi ideyaların, bilik və bacarıqların tətbiqi xarakterini alır. Müasir əmək bazarında praktik bilik və bacarıqlara yiyələnmiş kadrlara tələbat artır. Buna görə də hami təşkilatlar ali və orta ixtisas təhsili müəssisələri ilə birlikdə kadr hazırlığına diqqəti artırmalı, qarşılıqlı əməkdaşlıq imkanlarından daha səmərəli istifadə etməli, kadrların ixtisas üzrə təcrübi bilik və bacarıqlarının artırılmasına nail olmalıdırlar. Bu səbəbdən hami təşkilatlar və hamiliyə verilən qurumlar arasında görüşlər intensiv xarakter daşımalıdır. Hami təşkilatlarla hamiliyə verilən ixtisaslar arasında əməkdaşlıq yeni ideya mübadiləsinə və innovasiyaların yaranmasına gətirib çıxara bilər. Bu zərurətdən yaranan "Startap Naxçıvan" hərəkatının əsas məqsədi muxtar respublikada investisiya mühitini yaxşılaşdırmaq, yaradıcı düşüncəni və inkişafa xidmət edən ən yaxşı layihələri üzə çıxarmaq, innovativ ideyaların uğurlu biznes sahəsinə çevrilməsinə dəstək olmaqdır.

Qeyd olunub ki, təqdim edilən layihələrin son məqsədi real biznesin qurulmasına, xidmətlərin, sosial servislərin təqdim edilməsinə yönəlməli və effektiv innovasiyalar üzərində qurulmalıdır. Elmi inkişafa xidmət edən layihələr daha çox informasiya texnologiyalarının nailiyyətlərini özündə əks etdirməli, ölkədə yeni əmək bazarının və təhsil iqtisadiyyatının formalaşmasına xidmət etməlidir. Ali və orta ixtisas təhsili müəssisələri hamiliyə verilən təşkilatlarla birlikdə "Startap Naxçıvan" hərəkatı çərçivəsində startapçılar üçün yerli və beynəlxalq səviyyəli təlimlər təşkil etməlidir.

Ali Məclisin Sədri deyib: "Hami təşkilatlar və hamiliyə verilən təhsil müəssisələri yeni formalaşmaqda olan startapçıları, startap komandalarını əmək bazarının spesifik xüsusiyyətləri ilə tanış etməli, startapçılar arasında əlaqələri gücləndirmək məqsədilə hər il "Startap festivalı" keçirməlidir. Rabitə və Yeni Texnologiyalar Nazirliyi aid təşkilatların təklifləri əsasında layihələrə, o cümlədən startap fəaliyyətinə nəzarət mexanizmini asanlaşdıran internet portalının yaradılmasını təmin etməlidir. Təhsil Nazirliyi ali məktəblərin professor və müəllim heyətləri ilə yeni dərslik və dərs vəsaitlərinin müzakirəsinə diqqəti artırmalı, Mədəniyyət Nazirliyi açıq dərslərin, ustad dərslərinin, "dəyirmi masa" və müzakirələrin keçirilməsini diqqətdə saxlamalı, tələbələrin mütaliəsinin, tarix və mədəniyyətimizə dair biliklərinin zənginləşməsi üçün müvafiq ixtisasların buklet, kitab və broşürlərlə təmin olunmasına köməklik göstərməlidir. Gənclər və İdman Nazirliyi Əlahiddə Ümumqoşun Ordu ilə birgə gənclərin hərbi vətənpərvərlik işini diqqətdə saxlamalı, Gənclər Fondu ilə birlikdə maarifləndirici tədbirlərin keçirilməsini təmin etməlidir. Gənclər ideya və bacarıqlarına uyğun istiqamətləndirilməli, onların ideyaları sosial şəbəkələr vasitəsilə yayılmalı, fərqlənən gənclər mükafatlandırılmalıdır".

Ali Məclisin Sədri qarşıda duran vəzifələrin icrasında müşavirə iştirakçılarına uğurlar arzulayıb.

Sonda "Startap layihələri və innovativ inkişaf" filminə baxış olub.

# XİN Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Moskvada keçirilən görüşünə dair məlumat yayıb

Aprelin 15-də Moskva şəhərində Rusiya tərəfinin təşəbbüsünə əsasən, Rusiya xarici işlər naziri Sergey Lavrovun iştirakı ilə Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarov və Ermənistan xarici işlər naziri Zöhrab Mnatsakanyan arasında görüş keçirilib. Görüşdə, həmçinin ATƏT-in Minsk qrupunun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Xarici İşlər Nazirliyinin mətbuat xidməti Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Moskvada keçirilən görüşünə dair məlumat yayıb.

Məlumatda qeyd edilir ki, görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə başlıca məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb. Bu xüsusda, cari il martın 29-da Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının baş nazirinin Vyanada baş tutmuş görüşünün nəticələri diqqətə alınmaqla, münaqişə üzrə danışıqlar prosesinin irəli aparılması perspektivləri nəzərdən keçirilib.

Görüşdə, həmçinin münaqişə zonasında gərginliyin azaldılmasına dair tədbirlər, habelə humanitar sahədə mümkün birgə fəaliyyət üzrə fikir mübadiləsi aparılıb. Nazirlər KİV nümayəndələrinin qarşılıqlı səfərləri də daxil olmaqla insanlararası təmasların qurulması istiqamətində praktiki addımların atılmasına razılıqlarını ifadə ediblər. Görüş iştirakçıları yaxın gələcəkdə təmasların davam etdirilməsini razılaşdırıblar.

Görüş nəticəsində Azərbaycan, Ermənistan və Rusiya xarici işlər nazirlərinin və ATƏT-in həmsədrlərinin birgə bəyanatı qəbul edilib.

# *Elmar MƏMMƏDYAROV:* "Moskva görüşü faydalı və substantiv keçdi"

Aprelin 15-də Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinin Moskva görüşü faydalı və substantiv keçdi.




AZƏRTAC xəbər verir ki, bu fikri Azərbaycan jurnalistlərinə müsahibəsində xarici işlər naziri Elmar Məmmədyarov söyləyib.

Nazir qeyd edib ki, əvvəlcə Azərbaycan, Rusiya və Ermənistan xarici işlər nazirləri üçtərəfli görüş keçirdilər. "Çox faydalı görüş oldu. İndiyə qədər danışıqlarda irəliləyişə imkan verməyən məsələləri konkret şəkildə müzakirə etdik. Tam şəkildə irəliləyişin olmasını deyə bilmərəm. Ancaq Ermənistan tərəfi ilə bəzi problem yaradan məqamları ətraflı və daha dərindən başa düşə bildik. Məsələn, Ermənistan tərəfi statusla və təhlükəsizliklə bağlı məsələ qaldırdı. Biz isə qoşunların işğal altında olan torpaqlardan çıxarılması və məcburi köçkünlərin geri qaytarılması məsələsini qaldırdıq. Bu dörd fikir əsasında çox dərin müzakirələr apardıq", - deyə nazir bildirib.

Elmar Məmmədyarov vurğulayıb ki, görüşdə bəzi təkliflər səsləndirilib: "İndidən bu təklifləri açıqlamaq istəmirəm. Bu, həm Rusiya, həm digər həmsədrlər, həm də Azərbaycan və Ermənistan tərəfinin təklifləridir. Biz bu istiqamətdə işimizi davam etdirəcəyik".

Nazir görüşün yekun bəyanatında qeyd olunduğu kimi, Azərbaycan və Ermənistan jurnalistlərinin Bakıya, Yerevana və Dağlıq Qarabağa səfərlərinin təşkili məsələsinə toxunub: "Bu, çox maraqlı fikirdir ki, erməni və azərbaycanlı jurnalistlər Yerevana, Bakıya, Dağlıq Qarabağa səfərlər etsinlər. Bundan əlavə, cəbhə bölgəsində kənd təsərrüfatı ilə məşğul olan əhalinin təhlükəsizliyinin təmin olunması barədə razılığa gəldik. Ümid edirəm ki, Ermənistan tərəfi buna hörmətlə yanaşacaq. Sakinlərə öz torpaqlarında işləməyə imkan yaradacaqlar".

*Əvvəli 1-ci səh.*

# Xalqdan dəstək alan siyasət

Möhkəm təmələ, düşünülmüş dərin siyasətə əsaslanan yüksəliş yolu Azərbaycanı günbəgün inkişafa, tərəqqiyə, modernləşməyə aparır. Ötən bir ildə respublikamızın inkişaf strategiyasını müasir dövrün çağırışlarına uyğun daha da zənginləşdirən Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən düşünülmüş, təmkinli, lakin olduqca çevik və qətiyyətli, uzaqgörən siyasət nəticəsində qazanılmış uğurlar daha da möhkəmləndirilib. Bu bir ildə Azərbaycanın sosial və iqtisadi inkişaf göstəricilərini artırması, enerji təhlükəsizliyi məsələlərində söz sahibi kimi mövqelərini gücləndirməsi, müstəqil xarici siyasət kursu yürütməsi, Ermənistanla sülh danışıqlarında özünün üstün mövqeyini daha da möhkəmləndirməsi ölkə ictimaiyyəti tərəfindən böyük razılıqla qarşılanır.

## Dünyanın ən sabit ölkələrindən biri

Təbii ki, inkişafı, dövlətin beynəlxalq imicini şərtləndirən bir çox amillər mövcuddur. Bunların sırasında siyasi-ictimai sabitlik olduqca mühüm əhəmiyyət kəsb edir. Qeyri-sabitlik səbəbindən bir sıra dövlətlərdəki ağır vəziyyət göz önündədir. Daxili çəkişmələr, miqrant probleminin dərinləşməsi, terrorçu qrupların fəaliyyətinin artması qeyri-sabitliyin göstəriciləridir.

Azərbaycanda vaxtilə ulu öndər Heydər Əliyevin təmin etdiyi sabitlik getdikcə daha da möhkəmlənib və sarsılmaz olub. Son 16 ildə ölkəmizdə qazanılan uğurların əsas səbəblərindən biri kimi məhz bütün sahələrdə təmin olunan sabitikdir. Elə buna görə də ölkə vətəndaşları "Opinion Way" şirkətinin sorğusunda ölkəmizdəki sabitliyi yüksək qiymətləndiriblər. Belə ki, sorğunun nəticələrinə görə, respondentlərin 80,1 faizi ölkədəki mövcud ictimai-siyasi və sosial-iqtisadi sabitliyin qorunub saxlanılmasını Prezident İlham Əliyevin fəaliyyətinin ən uğurlu nəticəsi kimi dəyərləndirib. Respondentlərin fikrinə görə, dünyada və bölgədə yaşanan çoxsaylı mənfi proseslərdən asılı olmayaraq, Azərbaycan son bir ildə ictimai-siyasi sabitlik şəraitində öz dinamik sosial-iqtisadi inkişafını davam etdirib, xalqın əmin-amanlığı və rifahı naminə bütün zəruri addımlar atılıb, əhalinin firavan həyatı üçün ardıcıl tədbirlər görülüb. Ölkədə etnik, dini və ictimai-siyasi zəmində sabitlik hökm sürüb, ictimaiyyətdə narahatlıq doğuran ciddi hallar müşahidə edilməyib. Bütün bunlar ölkədaxili vəziyyəti və Azərbaycan Prezidentinin fəaliyyətini yüksək qiymətləndirməyi təmin edən amillər olub.

## İnkişaf göstəriciləri ilə zəngin il

Məhz qazanılan uğurların nəticəsidir ki, sorğunun "Prezident İlham Əliyevin son bir ildə gördüyü işləri necə qiymətləndirirsiniz" sualına respondentlərin 85,1 faizi bütövlükdə müsbət cavab verib. Son bir ildə isə uğurlarımız sözün əsl mənasında möhtəşəmdir. Ötən bir il Prezident İlham Əliyevin gələcəyə, perspektivdə ölkəmizin inkişafına hesablanmış iqtisadi kursunun nə qədər düzgün və milli maraqlarımıza layiqincə xidmət etdiyini təsdiqləyən nümunələrlə zəngindir. Bu dövrdə Azərbaycanın müstəqil enerji siyasətinin növbəti təntənəsi olan tarixi hadisələr baş verdi. "Cənub qaz dəhlizi"nin istifadəyə verilməsi ilə respublikamız beynəlxalq enerji təhlükəsizliyi məsələlərində öz mövqelərini bir qədər də möhkəmləndirdi. Türkiyədə "Star" zavodunun tikintisinin başa çatdırılması da Azərbaycanın qlobal uğuru kimi tarixə düşdü.

Bu gün Azərbaycan həm də müxtəlif fəaliyyət növlərini kosmosdan idarə edən dövlətlərdən biridir. İndi ölkəmizin orbitdə müxtəlif funksiyalar daşıyan üç peyki var ki, onlardan sonuncusu ötən bir ildə fəzaya buraxılıb.

Respondentlərin ötən bir ilin mühüm uğuru olaraq qiymətləndirdikləri başqa bir göstərici islahatların yeni mərhələsinin başlanmasıdır. Bu dəfə islahatlar idarəçilikdən başlasa da, daha sonra sosial sferada atılan addımlarla davam etdi. Ona görə "Opinion Way"in "Azərbaycanda həyata keçirilən sosial-iqtisadi fəaliyyəti və bu sahədə Prezident İlham Əliyevin son ildə apardığı islahatları necə qiymətləndirirsiniz" sualına sorğuda iştirak edənlərin 90,5 faizi bütövlükdə müsbət cavab verib, onlardan 64 faizi bu istiqamətdə hökumətin fəaliyyətini "tam bəyəndiyini" bildirib.

Hər bir sorğunun nəticəsi reallığa, görülən işlərə və ortada olan nəticələrə əsaslanır. Bu baxımdan Fransanın "Opinion Way" şirkətinin mart ayında keçirdiyi sorğu ölkəmizlə bağlı həqiqətlərə yeni baxış oldu. Sorğunun nəticələri ilk növbədə ölkə vətəndaşlarının Prezident İlham Əliyevə və onun yürütdüyü siyasətə etimadının təsdiqi kimi tarixə düşdü. İkinci tərəfdən isə nəticələr göstərdi ki, Azərbaycan öz inkişaf yolu ilə inamla irəliləyən və qarşıya qoyduğu hədəflərə layiqincə çatmağı bacaran dövlətdir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Heydər Əliyev Mərkəzində türkiyəli tarixçi İlbər Ortaylının mühazirəsi olub






Heydər Əliyev Mərkəzində türkiyəli tarixçi, professor İlbər Ortaylının “Qafqaz tarixi” mövzusunda mühazirəsi keçirilib.

AZƏRTAC xəbər verir ki, professor İlbər Ortaylı Avropa qitəsinin mühüm regionu olan Qafqaz ərazisində qədim dövrdə yaradılmış dövlətlər, burada yaşayan yerli əhali, eləcə də müxtəlif dövrlərdə əraziyə pənah gətirmiş, köçürülmüş tayfalar, etnik qruplar haqqında məlumat verib, eramızdan əvvəl mövcud olmuş Urartu dövlətinə dair erməni iddialarına qarşı tutarlı faktlarını diqqətə çatdırıb.

Mühazirəçi qeyd edib ki, istər Azərbaycan, istər Türkiyə ərazisində müxtəlif vaxtlarda həm sığınacaq axtaran xalqlar, həm də işğalçı dövlətlərin ərazisindən gələn xalqların nümayəndələri məskunlaşıb. Təsadüfi deyil ki, müasir dövrdə də hər iki dövlət qaçqın qəbul edir. İstər Azərbaycan, istərsə də Türkiyə ərazisində özəlliyini qoruyub saxlamış etnik qruplara rast gəlmək mümkündür. Ermənilər isə Qafqaza əsasən XVIII-XIX əsrlərdə köçürülüb.

Tarixçi alim çoxmillətli Qafqazda oğuz türkcəsinin geniş yayıldığını bildirib, əlifbanın bir neçə dəfə dəyişməsi məsələsinə aydınlıq gətirib, Mirzə Fətəli Axundzadənin əlifba islahatı layihəsini, türk dilinə məxsus səslərin ərəb qrafikası ilə yazmağın mümkünsüzlüyünü qeyd edib. O, Mahmud Kaşğarinin “Divani lüğət-it-türk” əsərinin türklərin qədim dili, tarixi və mədəniyyəti haqqında məlumat verən dəyərli mənbə olduğunu söyləyib.

Türkiyəli professor Qafqazın müsəlmanlaşması məsələsinə aydınlıq gətirərkən, türklərə İslam dininin qılınc gücünə qəbul etdirilməsi barədə fikirlərin yanlış olduğunu, insanların bu dini zaman-zaman könüllü qəbul etdiklərini bildirib.

“Qafqaz bizim üçün bir tarixdir”, - deyən tarixçi alim Qafqazda səlcuqlar hakimiyyətini, XIX əsrdə Rusiya işğalına - 1828-ci il Türkmənçay müqaviləsinə qədər Azərbaycan dövlətlərinin hakimiyyətinin olduğunu, bu gün isə Qafqazda Azərbaycan Respublikasının mövqeyini vurğulayıb.

“Dünyada eyni dili danışanlar eyni yerdə yaşamasalar da mənən, ruhən birdir”, - deyən professor İlbər Ortaylı ulu öndər Heydər Əliyevin Azərbaycan və Türkiyə haqqında “Bir millət, iki dövlət” müdrik kəlamını xatırladıb.

Qeyd edilib ki, Nizami Gəncəvi farsca yazsa da, türk idi. İranda yaşayan Məmmədhüseyn Şəhriyarın Azərbaycan dilində yazdığı “Heydərbabaya salam” poeması onun mənən xalqına bağlılığını, onunla həmrəyliyini göstərir. Biz bir mədəniyyətik. Bu mədəniyyətin içində rənglər var, əsasında isə türklərin tarixi dayanır.

Mühazirəni Türkiyənin Azərbaycandakı səfiri, Milli Məclisin deputatları, tarixçi alimlər, ziyalılar, tələbələr, ictimaiyyət nümayəndələri dinləyiblər.

Türkiyəli professor tədbir iştirakçılarının çoxsaylı suallarını cavablandırıb.

İlbər Ortaylı 1947-ci ildə anadan olub. Ankara Universitetinin siyasi biliklər fakültəsini və dil, tarix, coğrafiya fakültəsinin tarix bölməsini bitirib. Magistr təhsilini Çikaqo Universitetində alıb. 1974-cü ildə doktorluq dissertasiyası müdafiə edib, 1979-cu ildə dosent, 1989-cu ildə isə professor olub. Vyana, Berlin, Paris, Prinston, Moskva, Roma, Sofiya, Kembric, Oksford və Tunis universitetlərində dərs deyib, seminarlar aparıb. Türkiyənin bir sıra televiziya kanallarında müxtəlif proqramlar hazırlayıb.

2005-2012-ci illərdə Topqapı Saray Muzeyinin rəhbəri olub. Bir çox elmi məqalələrin müəllifidir.

## Demoqrafiya

# Bu il Azərbaycanda əhalinin növbəti siyahıyaalınması keçiriləcək



Əhalinin siyahıyaalınmasından əldə olunan demoqrafik göstəricilər ölkənin sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarının işlənib hazırlanmasında və həyata keçirilməsində mühüm əhəmiyyət daşıyır. Demoqrafik göstəricilərə aid proqnoz məlumatlarından sosial-iqtisadi inkişafla əlaqədar gələcək planların qurulması zamanı istifadə olunur.

Proqnoz məlumatların hesablanması üçün əsas məlumat mənbələri əhalinin siyahıyaalınması, demoqrafik hadisələrin cari qeydiyyatı və əhalinin mexaniki hərəkətidir. Etibarlı proqnoz məlumatlarının əldə olunması üçün sosial-iqtisadi vəziyyətin kompleks qiymətləndirilməsi və fərziyyələrin əsaslandırılması da mühüm əhəmiyyət kəsb edir.

BMT-nin Avropa Statistikləri Konfransının əhalinin və mənzil fondunun siyahıyaalınması üzrə tövsiyələrində ölkələrdə bu tədbirin səmərəli şəkildə həyata keçirilməsi üçün müvafiq qanunvericilik aktları ilə dəstəklənməsinin vacibliyi qeyd olunub.

Bu il oktyabrın 1-10-da ölkəmizdə əhalinin növbəti siyahıyaalınmasının keçirilməsi nəzərdə tutulub. Bununla bağlı Prezident İlham Əliyev 2016-cı il sentyabrın 7-də fərman imzalayıb. Fərmana uyğun olaraq siyahıyaalma ilə bağlı hazırlıq işlərinin görülməsi və onun keçirilməsi, yekunların işlənməsi, nəticələrin dərc edilərək yayılması Dövlət Statistika Komitəsinə həvalə edilib.

Komitənin Əhali statistikası şöbəsinin müdiri Rza Allahverdiyev bildirir ki, əhalinin siyahıyaalınması müəyyən bir zaman kəsiyində ölkədə əhalinin faktiki vəziyyətini görməyə, dəyişiklikləri təhlil etməyə və proqnoz verməyə imkan yaradır. Əhalinin siyahıyaalınmasının əhəmiyyəti əhalinin hətta kiçik bir məskunlaşma yerində olsa belə həyat fəaliyyətini hərtərəfli xarakterizə edən kompleks göstəriciləri əldə etməyə imkan verir. Məsələn, yalnız siyahıyaalma məlumatlarına əsasən əhalinin təhsil səviyyəsinə, yaşayış üçün əsas gəlir mənbəyinə dair məlumatları əldə etmək olar. Ayrılıqda şəhər və qəsəbələr, bütövlükdə ölkə üzrə ailələrin sayını, onların tərkibini, yaşayış üçün gəlir mənbələrini və ev təsərrüfatlarının mənzil şəraitini öyrənmək mümkündür.

Əhalinin siyahıyaalınmasının dəyəri siyahıyaalmanın yekunları əsasında əldə olunacaq dolğun və müfəssəl məlumatlarla müəyyən edilir. Əhalinin siyahıyaalınmasının nəticələri əhali sayının cari hesablanmasında əldə edilə bilməyən demoqrafik hadisələri əks etdirir. Buna qeydə alınmayan nikahlar da daxildir. Qeyri-rəsmi nikahda olanlar haqqında məlumatların əldə edilməsi yalnız siyahıyaalınmada mümkündür.

Xatırladaq ki, Azərbaycan əhalisinin demoqrafik vəziyyəti haqqında məlumatların əldə edilməsi ilk dəfə çar Rusiyası dövründə - 1897-ci il Birinci Ümumrusiya siyahıyaalmasının keçirilməsi nəticəsində mümkün olub. SSRİ dövründə isə Azərbaycan əhalisinin siyahıyaalınmaları 1926, 1939, 1959, 1970, 1979 və 1989-cu illərdə aparılıb. Bu il keçiriləcək siyahıyaalınma müstəqillik dövründə sayca üçüncü olacaq.

2019-cu ildə əhalinin siyahıyaalınması milli səviyyədə demoqrafik və sosial-iqtisadi inkişafa dair proqnozların hazırlanması ilə yanaşı, beynəlxalq tövsiyələr və milli prioritetlər əsasında ölkədə əhalinin son siyahıyaalınmasından ötən dövrdə əhali haqqında dəqiq və müfəssəl məlumatların əldə edilməsinə imkan yaradacaq. Eləcə də dövlət başçısının 29 dekabr 2012-ci il tarixli fərmanı ilə təsdiq edilmiş “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasından irəli gələn hədəflərin qiymətləndirilməsində mühüm rol oynayacaq.

Siyahıyaalınmadan əldə ediləcək statistik məlumatlar Azərbaycanın gələcək inkişaf prioritetlərinin düzgün müəyyənləşdirilməsində əsas informasiya mənbəyi olacaq.

***Flora SADIQLI,***
***“Azərbaycan”***


## BİLDİRİŞ

**Qazax Rayon İcra Hakimiyyəti Qazax rayonunda məşğulluğun artırılması istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində haqqı ödənilən ictimai işlərə cəlb edilmiş işçilərin xüsusi geyim, inventar və materiallarla təmin edilməsi üçün geyim və inventarın satın alınması məqsədilə**

***təkliflər sorğusu elan edir***

Təkliflər sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı ünvana - Qazax şəhəri, Azadlıq küçəsi, 78 (əlaqələndirici şəxs: Samir Nəriman oğlu Qurbanov, telefon: (022) 295-13-93) müraciət edə bilərlər.

Təkliflər sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanmış və möhürlənmiş təkliflər sorğusunu 19 aprel 2019-cu il saat 17:00-dan gec olmamaq şərti ilə təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan təkliflər sorğusu baxılmadan geri qaytarılacaqdır.

Təkliflər sorğusu Qazax Rayon İcra Hakimiyyətinin Tender komissiyası tərəfindən Qazax şəhəri, Azadlıq küçəsi, 78 ünvanında 22 aprel 2019-cu il saat 15:00-da açılacaqdır. İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***



**Azercell**

## abunəçilərinin nəzərinə

“Azercell Telekom” MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 17.04.2019-cu il tarixdə, gecə saatlarında bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür. Təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra bütün xidmətlərin tam normal əsaslarla fəaliyyət göstərilməsi imkanı təmin ediləcəkdir.



**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**

**www.azerbaijan-news.az**



## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti

***açıq tenderə dəvət edir***

Tender 2 LOT üzrə keçirilir:

**LOT 1 Kompüter avadanlıqlarının satın alınması**

**LOT 2 Ofis proqram təminatının və serverin satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tender təkliflərini imzalanıb möhürlənmiş, ikiqat zərflərdə yazılı təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər

**LOT 1 500 (beş yüz) manat iştirak haqqını**

**LOT 2 500 (beş yüz) manat iştirak haqqını**

sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra “Bakı Telefon Rabitəsi” MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bank: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖENi: 9900037711**
**M/H: AZ76NABZ01350100000000094944**
**SWIFT: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **22 may 2019-cu il saat 17:00-dək** aşağıdakı sənədləri “Bakı Telefon Rabitəsi” MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz Bank Zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcək.

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
3. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
4. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış.*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
8. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
9. *İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*
10. *Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını möhürlənmiş ikiqat zərfdə **31 may 2019-cu il saat 17:00-a** qədər “Bakı Telefon Rabitəsi” MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru **03 iyun 2019-cu il saat 15:00-da** “Bakı Telefon Rabitəsi” MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında keçiriləcəkdir.

Tenderlə əlaqədar daha ətraflı məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

Əlaqələndirici şəxs: **Məmmədov Faiq, tel.: (+994 12) 498-39-29**

***Tender komissiyası***



## BİLDİRİŞ

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən “Azərbaycan” qəzetinin 15.01.2019-cu il tarixdə elan edilmiş dizel generatorların ehtiyat hissələrinin satın alınması üzrə açıq tender prosedurunun qalibi “C.E.S-2008” MMC müəyyən edilmişdir. “Bakı Telefon Rabitəsi” MMC və “C.E.S-2008” MMC arasında 09 aprel 2019-cu il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***



## BİLDİRİŞ

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən “Azərbaycan” qəzetinin 15.01.2019-cu il tarixdə elan edilmiş kondisionerlərin ehtiyat hissələrinin satın alınması üzrə açıq tender prosedurunun qalibi “C.E.S-2008” MMC müəyyən edilmişdir. “Bakı Telefon Rabitəsi” MMC və “C.E.S-2008” MMC arasında 09 aprel 2019-cu il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***



## BİLDİRİŞ

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən “Azərbaycan” qəzetinin 15.01.2019-cu il tarixdə elan edilmiş kompressor siqnal qurğularının ehtiyat hissələrinin satın alınması üzrə açıq tender prosedurunun qalibi “Aspiration Group” MMC müəyyən edilmişdir. “Bakı Telefon Rabitəsi” MMC və “Aspiration Group” MMC arasında 09 aprel 2019-cu il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***


AzerGold
QAPALI SƏHMDAR CƏMİYYƏTİ

# “AzerGold” QSC və “Regional İnkişaf” İctimai Birliyi iqlim dəyişikliyi mövzusunda təlim təşkil edib



11-14 aprel 2019-cu il tarixlərində “AzerGold” QSC-nin Korporativ Sosial Məsuliyyət Komitəsi Heydər Əliyev Fondunun “Regional İnkişaf” İctimai Birliyi ilə tərəfdaşlıq çərçivəsində “Fərdi aqrar təsərrüfatlarının iqlim dəyişikliyinə adaptasiyası” mövzusunda təlim təşkil edib.

Tədbiri açan “AzerGold” QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov BMT-nin təşəbbüsü ilə hazırlanan və 193 ölkənin qoşulduğu “Dayanıqlı İnkişaf üzrə Qlobal Hədəflər 2030”un milli səviyyədə icra edildiyini qeyd edərək, bu istiqamətdə ölkədə həyata keçirilən dövlət proqramlarını sadaladı. Həmçinin Heydər Əliyev Fondu tərəfindən ətraf mühitin mühafizəsi, müxtəlif sahələrdə, xüsusilə də sahibkarlığın dayanıqlı inkişafı istiqamətində həyata keçirilən layihələri, irəli sürülən təşəbbüsləri örnək göstərən Zakir İbrahimov “AzerGold” QSC tərəfindən həyata keçirilən korporativ sosial məsuliyyət tədbirləri haqqında da ətraflı məlumat verib.

Tədbirdə çıxış edən Heydər Əliyev Fondunun Beynəlxalq Əlaqələr Departamentinin rəhbəri Soltan Məmmədov, Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov, Ekologiya və Təbii Sərvətlər nazirinin müavini Novruz Quliyev, Azərbaycan Respublikası Kənd Təsərrüfatı nazirinin müavini Seyfəddin Talıbov iqlim dəyişikliyi və bu istiqamətdə görülən tədbirlər haqqında fikirlərini bildiriblər.

4 gün davam edən təlim zamanı Gəncə-Qazax, Aran, Lənkəran və Naxçıvan iqtisadi rayonlarında kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən 50-yə yaxın sahibkar iqlim dəyişikliyi şəraitində su, torpaq və bitki idarəçiliyi, kənd təsərrüfatında mövcud innovasiyalar, iqlim dəyişikliyinə məruz qalan təsərrüfatlara qanunvericilikdə nəzərdə tutulan güzəştlər haqqında praktik biliklər əldə ediblər. İnteraktiv şəkildə sualların cavablandırıldığı, geniş müzakirələrin və fikir mübadiləsinin aparıldığı təlimin sonunda fermerlər müvafiq sertifikatlarla təltif olunublar.

Rəsmi dövlət qurumlarının, elm və təhsil ocaqlarının, müstəqil ekspertlərin təlimçi qismində iştirak etdiyi tədbirdə əmək qabiliyyətli əhalinin böyük hissəsinin məşğul olduğu kənd təsərrüfatının iqlim dəyişikliyinə adaptasiyasına, qeyri-neft sektorunun dayanıqlı inkişafına, regionlarda sosial rifahın daha da yüksəlməsinə dəstək göstərmək və bununla da “Dayanıqlı İnkişaf üzrə Qlobal Hədəflər 2030”a nail olunmasına töhfə vermək məqsədlərini daşıyır.

Xatırladaq ki, Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Paris Sazişinə 26 oktyabr 2016-cı il tarixindən etibarən qoşulub və bu istiqamətdə ölkəmizdə silsilə tədbirlər həyata keçirilir.

***“Azərbaycan”***



## Koreya-Azərbaycan ikitərəfli əməkdaşlıq tədbiri

Koreya Respublikası Səfirliyinin Ticarət şöbəsi - Koreya Ticarət və İnvestisiyaların Təşviqi Agentliyi (KOTRA) 26 aprel 2019-cu il tarixdə Hyatt Regency Baku hotelinin "Quba" zalında keçiriləcək Koreya-Azərbaycan ikitərəfli əməkdaşlıq tədbiri barədə Sizə məlumat verməkdən məmnundur. Tədbirdə müxtəlif sahələrdə ixtisaslaşmış 7 Koreya şirkəti iştirak edəcək.

**İştirakçı şirkətlər aşağıdakılardır:**

| | |
|---|---|
| NATURE4 Co. LTD | Hidrogel tərkibli maska, kosmetik vasitələr |
| JINSUNG Bio Co. LTD | Müxtəlif növ souslar və ədviyyatlar |
| JUNGWOO Automotive Co. LTD | Avtomobillər üçün su pompaları |
| CHANG JIN TAPE Co. LTD | Müxtəlif növ yapışqan lentlər, skoçlar |
| LEE HWA IND Co. LTD | Toxuculuq liflərinin hazırlanması üçün maşınlar |
| KUKJE danjo farm machine Co. LTD | Kənd təsərrüfatı texnikasının ehtiyat hissələri |
| SAMWOO YEONSA | Poliester (neylon) parçalar |

Nəzərinizə çatdırmaq istəyirik ki, tədbir B2B formatında keçiriləcək. Tədbirdə iştirak etmək istəyən şəxslər aşağıdakı nömrələrdən Koreya Ticarət və İnvestisiyaların Təşviqi Agentliyinə (KOTRA) zəng edərək ətraflı məlumat əldə edə bilərlər.

**KOTRA - Korea Business Center, Baku**
**Commercial Section of the Embassy of the Republic of Korea**
**12 B. Bagirova str., Maryam Plaza, office 304**
**Tel: (+994 12) 436 75 60 / 61**
**Fax: (+994 12) 436 75 62**
**Mob: (+994 51) 826 77 85**

TEKSAN
SÖNMƏZ ELEKTRİK MMC
Azərbaycan təmsilçiliyi - 23 İL
GENERATORLARIN SATIŞI VƏ SERVİSİ
055/070-771-99-44
012-441-65-53
info@sonmezelektrik.com

### Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası

poçt (kuryer) xidmətinin satın alınması üçün

## *kotirovka sorğusu elan edir*

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər Palatanın inzibati binasına - Bakı şəhəri, Bülbül pr., 27 ünvanına müraciət edə bilərlər (əlaqələndirici şəxs: Rüstəm Kərimov, telefon: (+99412) 493-50-58/285; Faks: (+99412) 498-12-14.

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyən şəxslər imzalanmış və möhürlənmiş kotirovka təkliflərini (əlavə olaraq qiymət cədvəli və şərtlər toplusunda göstərilən sənədlər) **19 aprel 2019-cu il saat 17:00-dan** gec olmamaq şərti ilə təqdim etməlidirlər.Tender proseduru Bakı şəhəri, Bülbül pr., 27 ünvanında Palatanın inzibati binasının 3-cü mərtəbəsində **22 aprel 2019-cu il saat 11:00-da** başlayacaqdır. Poçt (kuryer) xidmətinin müddəti 12 ay olmaqla, şərtlər toplusunda göstərilən qrafikə uyğun yerinə yetirilməlidir. Kotirovka sorğusuna tələblərə cavab verən iştirakçılardan ən aşağı qiymət təqdim etmiş malgöndərən qalib hesab olunacaqdır. Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.

***Tender komissiyası***

### Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Qəbələ rayonu Tarix-Diyarşünaslıq Muzeyinin bədii tərtibat işlərinin satın alınması ilə əlaqədar

## *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

LOT 1 - Qəbələ rayonundakı Tarix-Diyarşünaslıq Muzeyinin bədii tərtibat işlərinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu AZ1000, Bakı şəhəri, Hökumət Evi, Ü.Hacıbəyli küçəsi, 84 ünvanından (əlaqələndirici şəxs: Məmmədov İsa, telefon: 012 493 05 24) ala bilərlər.

İştirak haqqı: LOT 1 - 150 manat

Hesab: AZ78CTRE00000000000002178501
VÖEN: 1700015381
Bank: Dövlət Xəzinədarlığı Agentliyi
Kodu: 210005
VÖEN: 1401555071
M/H: AZ41NABZ01360100000000003944
SWIFT: CTREAZ22

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **20 may 2019-cu il saat 17:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **29 may 2019-cu il saat 17:00-a** qədər AZ1000, Bakı şəhəri, Hökumət Evi, Ü.Hacıbəyli küçəsi, 84 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **30 may 2019-cu il saat 14:00-da** AZ1000, Bakı şəhəri, Hökumət Evi, Ü.Hacıbəyli küçəsi, 84 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Email: **muzeyinfo@gmail.com**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 13 fevral, 27 fevral və 30 mart 2019-cu il tarixli nömrələrində "Azərsu" ASC-nin daxili vəsaiti hesabına əyləc qəlibləri, süzgəclər, akkumlyator batareyaları və yağların satın alınması məqsədilə dərc edilmiş tenderdə iddiaçıların rəsmi müraciətlərinə əsasən 1, 2 və 3-cü LOT-larda (əyləc qəlibləri, süzgəclər, akkumlyator batareyalarının satın alınması) tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 29 aprel 2019-cu il saat 16:00-a, təkliflərin açılışı isə 30 aprel 2019-cu il saat 16:00-a dəyişdirilmişdir.

Əlaqələndirici şəxs - Təchizat və satınalmaların idarə olunması departamentinin Satınalmaların təşkili şöbəsinin mühəndisi Hikmət Qasımov (hikmat.qasimov@azersu.az +99412 431-47-67(2249).

***Tender komissiyası***

### Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası

Təkrar

**valyuta mübadiləsi fəaliyyətinə "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada lisenziyaların verilməsi, valyuta mübadiləsi fəaliyyətinə verilmiş lisenziyaların reyestrinin və valyuta mübadilə əməliyyatları üzrə uçotun aparılması üçün proqram təminatı məqsədilə mal və xidmətlərin satın alınmasına dair**

## *açıq tender elan edir*

Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası valyuta mübadiləsi fəaliyyətinə "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada lisenziyaların verilməsi, valyuta mübadiləsi fəaliyyətinə verilmiş lisenziyaların reyestrinin və valyuta mübadilə əməliyyatları üzrə uçotun aparılması üçün proqram təminatı məqsədilə mal və xidmətlərin satın alınmasına dair açıq tender keçirir.

Dövlət satınalmalarını tənzimləyən normativ hüquqi sənədlərdə göstərilən hallar istisna olmaqla, istənilən rezident və qeyri-rezident hüquqi və ya fiziki şəxslər yaxud hüquqi şəxslər birliyi dövlət mənsubiyyətindən asılı olmayaraq, Azərbaycan Respublikasında keçirilən dövlət satınalma prosedurlarında iddiaçı kimi iştirak edə bilərlər.

Tenderdə iştirak etmək üçün iddiaçı aşağıdakı sənədləri təqdim etməlidir:

- *tenderdə iştirak üçün ərizə;*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və reyestrdən çıxarış ) notarial qaydada təsdiq edilmiş surətləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *tenderdə iştirak haqqının ödənilməsi haqqında bank arayışı;*
- *iki nüsxə (əsli və surəti) Azərbaycan dilində tender təklifi (tender təklifi zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (əsas şərtlər toplusuna əlavə edilən bank qarantiyası formasında - zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *son bir ili əhatə edən maliyyə dövriyyəsini əks etdirən bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında vergi və digər müvafiq orqanlardan arayış;*
- *digər sənədlər.*

Tender proseduru **17 may 2019-cu il tarixdə saat 15:00-da** Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının inzibati binasında (Bakı şəhəri, Bülbül prospekti, 27) keçiriləcəkdir.

İddiaçı tender təklifini və tender təklifinin bank təminatını 16 may 2019-cu il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə ikiqat zərfdə, digər tələb olunan sənədləri isə ən geci 07 may 2019-cu il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə bağlı zərfdə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının Bakı şəhəri, Bülbül prospekti, 27 ünvanda yerləşən inzibati binasına təqdim etməlidir. Göstərilən vaxtdan gec təqdim olunmuş zərf və sənədlər açılmadan geri qaytarılacaq və iddiaçı tenderə buraxılmayacaqdır.

İştirak haqqı **500** manat təşkil edir və tenderin nəticələrindən asılı olmayaraq geri qaytarılmır. Tenderdə iştirak haqqı Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının aşağıdakı hesabına köçürülməlidir:

**Bank: ASC "Xalq" Bankının "Sahil" filialı**
**Bank VÖEN: 2000296061**
**Müxbir hesab: AZ24NABZ01350100000000067944**
**Kod: 510675**
**SWIFT: HAJCAZ 22**
**İBAN: AZ92HAJCNCRAZN00900071310001**
**VÖEN: 1403372311**

Malgöndərənlər (podratçılar) ixtisas uyğunluğunun müəyyənləşdirilməsi sənədlərində və tenderin əsas şərtlər toplusunda şərh edilmiş ixtisas meyarlarına və prosedurlarına əsasən qiymətləndiriləcəkdir.

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib olunmuşdur.

Tenderdə iştirak etmək istəyən şirkətlər iştirak haqqının ödənilməsi barədə bank arayışını təqdim edərək Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının Bakı şəhəri, Bülbül prospekti, 27 ünvanında yerləşən inzibati binasından Azərbaycan dilində tərtib edilmiş tenderin əsas şərtlər toplusunu əldə edə bilərlər. Tender üzrə əlaqələndirici şəxs: Maliyyə və satınalmalar idarəsinin aparıcı mütəxəssisi Rüstəm Kərimov (rustam.karimov@fimsa.az, Tel: (+99412) 493-50-58 /285; Faks: (+99412) 498-12-14).

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 07.03.2019-cu il tarixdə keçirilmiş LOT-1 "Bakı Metropoliteni" QSC-də deratizasiya, dezinfeksiya və dezinseksiya işlərinə dair xidmət göstərilməsinin açıq tender üsulu ilə satın alınmasına dair müsabiqədə "VORLD GİGİYENA" MMC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə LOT-1 üzrə 12.04.2019-cu il tarixdə ƏDV daxil 113413,41 (bir yüz on min dörd yüz on üç manat 41 qəpik) manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən **12.03.2019-cu** il tarixdə keçirilmiş "Bakı Metropoliteni" QSC üçün yaxma və yapışdırıcı malların açıq tender üsulu ilə satın alınmasına dair müsabiqədə "NB QRUP" ASC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə **11.04.2019-cu** il tarixdə ƏDV daxil 115996,95 (yüz on beş min doqquz yüz doxsan altı manat 95 qəpik) manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanova əzizi

**HAFİZ MUSA OĞLU BAĞIROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Daxili işlər nazirinin müavini Oruc Zalov Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanova əzizi

**HAFİZ MUSA OĞLU BAĞIROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və professor-müəllim heyəti Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanova əzizi

**HAFİZ MUSA OĞLU BAĞIROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi konfederasiyanın prezidentinin müşaviri Həmid Bağırova əzizi

**HAFİZ MUSA OĞLU BAĞIROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyevə qardaşı

**SABİR ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

AMEA Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun direktoru, akademik İradə Hüseynova və institutun kollektivi Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanova əzizi

**HAFİZ MUSA OĞLU BAĞIROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyevə qardaşı

**SABİR ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyinin rəhbərliyi və kollektivi Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyevə qardaşı

**SABİR ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Famil Qasımov, Cavid Quliyev və Elçin Qasımov dostları İlqar Muradova atası

**NAZİM MURADOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 9093
Sifariş 1252
Qiyməti 40 qəpik